35_27 IYUl-QARA.qxd 9/18/2025 9:04 PM Page 1

UNİKAL

№35 (2265) 19 sentyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Ölkənin dərman bazarındakı problemlər kritik həddə çatıb



Səh.5

# Məzahir Pənahov yola salına bilər

*Yaxın altı ayda Azərbaycanda bir sıra yüksək vəzifəli şəxslərin təqaüdə göndərilməsi gözlənilir. Onlardan biri olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov göstərilir. İddialara görə, gələn ilin martında 75 yaşı tamam olacaq rəhbəri bu münasibətlə dövlət orden-medallarından biri ilə təltif ediləcək və təqaüdə göndəriləcək. Xatırladaq ki, Azərbaycanda son seçki ötən ilin sentyabrında keçirilib. Bu, növbədənkənar bələdiyyə seçkiləri olub. Ölkədə növbəti seçki isə 2030-cu ilin əvvəllərinə planlaşdırılıb. Söhbət bələdiyyə seçkilərindən gedir. Eyni ildə növbəti parlament seçkilərinin baş tutması da proqnozlaşdırılır. Həmin vaxt isə M.Pənahov artıq...*

Səh.8

## “Qeyri-neft sektorunda çalışanların gəlirləri aşağı düşəcək”



*İqtisadçı Xalid Kərimli “Unikal”a müsahibə verib. O, özəl sektorda gəlir vergisinə tətbiq olunan güzəşt müddətinin başa çatmasından, gələn il pensiya və maaşlarda nə qədər artım ola biləcəyindən, növbəti ilin büdcəsində neftin qiymətinin 65 dollardan götürülməsindən və Dövlət Neft Fondundan...*

Səh.4

## Azərbaycanda ətin qiyməti süni şəkildə artırılıb?



*Azərbaycan əhalisinin gündəlik qida rasionunda mühüm yer tutan ət bahalaşmaqda davam edir. Hazırda ölkədəki marketlərdə, eləcə də fərdi sahibkarlara məxsus ət mağazalarında 1 kiloqram dana ətinin qiyməti 20 manata yaxındır, quzu ətinin qiyməti isə 20 manatı keçib.*

Səh.3

## Vüqar Qurbanovdan növbəti kütləvi şikayət



*Respublika Endikronoloji Mərkəz tərəfindən I tip şəkər xəstəsi olan uşaqlara verilən sensor əsaslı qlükoza monitorinq sistemi “Sibionics” cihazının verilməsi ilə bağlı yenidən narazılıqlar ortaya çıxıb. Bu barədə “Unikal”a valideynlər məlumat veriblər. Onların sözlərinə görə, öncə mart ayında həmin cihazların...*

Səh.7

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:09 PM Page 2



# Nəzakət Teymurova: "Harda yazılıb ki, xanəndə botoks etdirməz və ya dırnaq qoydurmaz?"



***"Baxımsız olanda da danışırlar. Elə ifaçılarımız var ki, səhnəyə baxımsız çıxırlar, insanlar da ağızlarına gələn sözləri deyirlər".***

"Unikal" xəbər verir ki, bunu APA-ya müsahibəsində Xalq artisti Nəzakət Teymurovadeyib. O, bu fikirlərin yanlış olduğunu vurğulayıb: "Qalmışıq belə ki, necə edək? Əlbəttə, xanəndənin öz imici var və ondan kənara çıxmamalıdır. Xanəndə zövqlü və baxımlı olmalıdır. Harda yazılıb ki, xanəndə botoks etdirə bilməz və ya dırnaq qoydurmaz? Hərdən o tənqidləri yazan adamlara o qədər hirslənirəm ki, deyirəm, siz mənə minnətdar olmalısınız ki, öz milli musiqimizi təbliğ edirəm. Gedib haramısa açıb göstərmirəm. Sosial şəbəkələrdə insanlar başqalarını tanımadan rəy bildirirlər və bu, xalqımız üzərində pis təsir qoyur".

# "Həyatda gərək heç kimi qınamayasan" - Mətanət İsgəndərli



***"Qardaşım bir ildir rəhmətə gedib. İllərlə ağır xəstə olub. Xəstəxanada reanimasiyada o yan, bu yana qaçıb həkimlərə yalvarırdım. Bir qadın tutub məni soruşdu ki, "sizin də dərdiniz var?". Təsəvvür edirsiniz? Elə bilirlər, müğənnilərin dərdi yoxdur, deyirik, gülürük. Bizim sənətimiz budur. Hərənin bir peşəsi var. Hamı insandır. Gərək insanlar biri-birini incitməyələr. Həyatdır. Bir gün mənim, sabah sənin başına gələr. Həyatda gərək heç kimi qınamayasan".***

"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Mətanət İsgəndərli "Gün ortası" verilişində deyib. Müğənni qardaşının xəstəliyindən, insanların ona münasibətindən danışıb:

"Bir şeyi qınamaq olar. Onu desəm, sözün içindən söz çıxaracaqlar. Deməli bu, imtahandadır. Allah onları heç vaxt bağışlamayacaq. Əgər Allah bağışlayırsa, haqsızlıq edilən insan bağışlamır. Allah bizi o günahlardan uzaq etsin. O insan bunu son nəfəsində başa düşür, amma gec olur. O vaxt insanların bir üzü var idi. İndi üzünə gülüb, arxasını çevirib səndən danışırlar. Yalandan insanlar bir-birinin üzünə necə baxa bilər? İndi yalandan üzünə dururlar. Şokdayam. Mən utanaram. Artıq səmimiyyət hörməti azaldır. Hər şey normasında olmalıdır. Onda səndən də istifadə edəcəklər".



# "Arvaddır, boşayıram, yenə alacağam" - Alim Qasımov

***Xalq artisti Alim Qasımov "Rəngəranəg" verilişindəki açıqlaması ilə gündəmə gəlib.***

A.Qasımov son vaxtlar haqqında yayılan xəbərlərə görə bəzi jurnalistlərdən gileylənib.

"Balaca bir xəbəri götürüb kimisə biabır edirlər. Bunun əsl insanlara dəxli yoxdur. Bu, yüngül şeylər axtaranlar üçündür. Qoy onların da payını verək, eybi yoxdur, kef eləsinlər. Balaca sözlərlə özlərini ucuzlaşdırmasınlar. Sənətdən danışsınlar. Yoxsa mən ev satıram, maşın alıram, arvadımı boşayıram... Sənə nə dəxli var? Arvaddır, boşayıram, yenə alacağam..." - o, bildirib. (pravda.az)

# "Kasıb oğlan məni daşıya bilməz"

***"Kasıb oğlan məni daşıya bilməz". Bu sözləri aktrisa Pərvin Abıyeva "Öz aramızda" proqramında deyib.***

Sualları cavablandıran aktrisa sənət adamı ilə ailə qurmayacağını bildirib: "Aktyorla ailə qurmazdım. Heç vaxt ev yıxmaram. Uşağımın atası və ya həyat yoldaşım xəyanət etsə, bağışlayaram".

# "Ailə dağılırsa, burada günahkar qadındır"



***"Ailə dağılırsa, burada günahkar qadındır". Bu sözləri aktyor Sərxan Kərəmoğlu "Tarixin bir günü" verilişində deyib.***

Sənətçi qadınlarla bağlı təhqiramiz fikirlər səsləndirib: "Qadın istəsə əri vəzir olar. Ər pis vərdişlərə qurşanıbsa heç nə. Bir uşağı dünyaya gətirənə qədər 6, sonra 9 ay vaxt keçir. İki uşaqla boşanıb, əri təksirli bilən qadınlar düşmənimdir. O zaman uşaq dünyaya gətirmə: həkimə getmədim, işıqlar yanmır deyə ikinci, üçüncü, uşaq olur. 20 il əvvəl olsaydı, susardım. Amma iki uşaqla boşanırsa, günah ondadır. Hamiləlik dövründə boşanırsa, gəlin tərəfindəyəm. Qadın şiddət görürsə, anında qaçmalıdır. Yaxşı adamamsa 6 ayda bəlli edəcəyəm. İllərlə oturub, pis adam olmağımı içimdə saxlaya bilmərəm. Dörd uşaq dünyaya gətirib və xəyanət üzərində ailəni dağıda bilər. Qoy xoruzumuz gedib başqa çəpərdə banlasın da. Yenə yumurtlayanın yanına gələcək".

# Vüsalə efirə bu tarixdə qayıdır



***Aparıcı Vüsalə Əlizadə efirə qayıdır. "Unikal" xəbər verir ki, onun "İncə səhər" verilişi sentyabrın 22-dən etibarən yayıma başlayacaq.***

Proqram həftəiçi 5 gün saat 10:00-da "Xəzər TV"də yayımlanacaq.

## "Antiterror əməliyyatı dövlət suverenliyinin bərpasının yeganə yolu idi" - Deputat



***"2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanatla İkinci Qarabağ müharibəsi başa çatdı və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü bərpa olundu. Lakin razılaşmaya baxmayaraq, bölgədə gərginlik tam aradan qalxmadı. Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri Qarabağda qanunsuz şəkildə mövcudluğunu davam etdirdi. 2020-ci ildən sonra bu silahlı birləşmələrin sayı 10 min nəfəri keçmişdi ki, bu da birbaşa üçtərəfli Bəyanatın pozulması demək idi".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Kamaləddin Qafarov deyib. Millət vəkili 2021-ci ildən etibarən erməni silahlı birləşmələri tərəfindən Azərbaycan ərazisində məqsədyönlü şəkildə terror aktlarının həyata keçirildiyini qeyd edib: "Ermənistanda istehsal edilmiş yeni tipli minalar Azərbaycanın mülki və hərbi personalına qarşı istifadə olunurdu. Bu, bir daha sübut edirdi ki, Ermənistan və onun dəstəklədiyi separatçı rejim bölgədə sülh və sabitlik istəmir. Bu vəziyyət 2023-cü ilin 19 sentyabrında pik həddə çatdı. Qarabağda yerləşən erməni silahlı dəstələri genişmiqyaslı təxribatlara və terror hücumlarına əl atdılar. Azərbaycan Silahlı Qüvvələri məhz bu təxribatlara cavab olaraq Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əmrinə əsasən bölgədə lokal xarakterli antiterror əməliyyatına başladı. Əməliyyatın məqsədi həm təhlükəsizliyə qarşı olan təhdidləri aradan qaldırmaq, həm də Azərbaycanın Konstitusiya quruluşunu tam bərpa etmək idi".

Kamaləddin Qafarov bildirib ki, antiterror əməliyyatı həm də Azərbaycanın müasir hərbi gücünün və siyasi iradəsinin bariz göstəricisi idi: "Əməliyyat çox qısa müddətdə - cəmi 23 saat 43 dəqiqə ərzində uğurla başa çatdı. Separatçı silahlı dəstələr müqavimət göstərə bilməyərək ağ bayraq qaldırmağa məcbur oldular. Bundan cəmi 9 gün sonra, sentyabrın 28-də, Qarabağdakı qondarma rejimin rəhbəri Samvel Şahramanyan "Dağlıq Qarabağ Respublikasının" ləğvi ilə bağlı sənəd imzaladı. Bu sənəd, Ermənistanın illərdir bölgədə yaratmağa çalışdığı separatçı qurumun rəsmi şəkildə süqutu demək idi. 19-20 sentyabr antiterror əməliyyatı Azərbaycan dövlətçiliyi üçün strateji dönüş nöqtəsi oldu. Bu əməliyyat, təkcə hərbi yox, həm də siyasi və hüquqi baxımdan Azərbaycanın tam suverenliyinin bərpası yolunda atılmış həlledici addım idi".

***Hüseyn İsgəndərov***

## TDT-yə sədrlik Qırğızıstandan Azərbaycana keçəcək



***Bu ilin oktyabr ayında Türk Dövlətləri Təşkilatına sədrlik Qırğızıstandan Azərbaycana keçəcək, "Regional sülh və təhlükəsizlik" şüarı altında sammit olacaq.***

"Unikal" xəbər verir ki, bunu Baş nazir Əli Əsədov Bişkekdə Türk Dövlətləri Təşkilatının hökumət başçılarının və onların müavinlərinin ilk toplantısında bildirib. "Keçiriləcək Sammit "Regional sülh və təhlükəsizlik" şüarı altında baş tutacaq. Bu, təsadüfi deyil, çünki bölgəmizin sabitliyi və təhlükəsizliyi bütün əməkdaşlıq təşəbbüslərimizin təməlini təşkil edir.

Qlobal və regional proseslərin gərginləşdiyi bir zamanda Türk Dövlətləri Təşkilatının vahid mövqedən çıxış etməsi, ortaq səylər göstərməsi xüsusi əhəmiyyət daşıyır. Birgə addımlarımız regionumuzda sülhün möhkəmlənməsinə, iqtisadi inkişafın sürətlənməsinə və xalqlarımızın rifahına xidmət edəcək", - deyə Ə.Əsədov qeyd edib.

# Məzahir Pənahov yola salına bilər

## Azərbaycanda növbəti seçkilər yeni MSK sədrinin rəhbərliyi altında keçiriləcək? - Gözlənilən tarix və səbəb!

***Yaxın altı ayda Azərbaycanda bir sıra yüksək vəzifəli şəxslərin təqaüdə göndərilməsi gözlənilir. Onlardan biri olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov göstərilir. İddialara görə, gələn ilin martında 75 yaşı tamam olacaq rəhbəri bu münasibətlə dövlət orden-medallarından biri ilə təltif ediləcək və təqaüdə göndəriləcək.***

Xatırladaq ki, Azərbaycanda son seçki ötən ilin sentyabrında keçirilib. Bu, növbədənkənar bələdiyyə seçkiləri olub.



Ölkədə növbəti seçki isə 2030-cu ilin əvvəllərinə planlaşdırılıb. Söhbət bələdiyyə seçkilərindən gedir. Eyni ildə növbəti parlament seçkilərinin baş tutması da proqnozlaşdırılır. Həmin vaxt isə M.Pənahov artıq 80 yaşını qeyd edəcək.

İddialara görə, gələn ilin martında təqaüdə göndəriləcəyi iddia edilən indiki MSK sədrinin yerinə təyin ediləcək şəxsin aradakı 4 il müddətində sözügedən postda daha çox təcrübəyə yiyələnmək üçün kifayət qədər vaxtı olacaq.

Xatırladaq ki, 1951-ci il martın 13-də Tovuz rayonunun Qaraxanlı kəndində doğulan Məzahir müəllim 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə daxil olub və 1972-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib. 1971-1972-ci illərdə Sankt-Peterburq şəhərində A. F. İoffe adına Fizika-Texnika İnstitutunun diplomçusu, 1973-1976-cı illərdə isə aspirantı olub. 1979-cu ildən elmlər namizədi, 1992-ci ildən elmlər doktorudur. 1977-ci ildən 1993-cü ilədək Bakı Dövlət Universitetində müəllim, baş müəllim və dosent işləyib. 1993-cü ildən Bakı Dövlət Universitetinin "Ümumi fizika və fizikanın tədrisi metodikası" kafedrasının professoru, 1996-cı ildən 2019-cu ilədək həmin kafedranın müdiri olub.

1982-1983-cü illərdə Böyük Britaniyanın Mançester Universitetində, Təbiət Elmləri və Texnologiya İnstitutunda (UMIST) elmi tədqiqatlar aparıb. Onun elmi fəaliyyəti uğurlu alınıb: belə ki, mürəkkəb strukturlu bərk cisimlərdə elektron və optik hadisələrin tədqiqi sahəsində araşdırmalar aparıb, metal-izotop heterokeçidli yarımkeçirici kontaktından ibarət mürəkkəb strukturlu bərk cisimlərdə elektron və optik hadisələrin nəzəriyyəsini işləyib və ilk dəfə bu tip mikrosistemlərin Volt-Farad xarakteristikasında Mott rejiminə uyğun məxsusiyyətin mövcud olduğunu aşkarlayıb. Az sonra təcrübədə təsdiqini tapan bu ideya belə strukturlar əsasında prinsipcə yeni növ müasir cihazların hazırlanması imkanını gerçəkləşdirməklə bərabər heterokeçidlərdə, digər parametrlərlə yanaşı, praktiki baxımdan müstəsna əhəmiyyət kəsb edən enerji sıçrayışını çox böyük dəqiqliklə təyin etmək üçün yeni metodun da əsasını qoyub.

1998-2000-ci illərdə MSK-nın Beynəlxalq Əlaqələr İdarəsinin rəisi işləyib. 2000-ci il mayın 19-da Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə MSK üzvü təyin olunub və həmin gün Komissiyaya sədr seçilib.

O, 2011-ci ilin martında, 60 yaşının tamamında "Şöhrət", 2021-ci ilin martında isə "Şərəf" ordeni ilə təltif edilib.

Onu da yada salaq ki, hələ 2019-cu ildə ölkə mediası ölkədə aparılan kadr islahatları, uzun müddət eyni vəzifədə qalan və həmçinin pensiya yaşı keçmiş məmurların vəzifədən uzaqlaşdırılması prosesinin davamı olaraq MSK-nın o vaxt 68 yaşlı sədri Məzahir Pənahovun da istefa ərizəsini Milli Məclisə təqdim edəcəyini yazırdı. "MSK-da hakim Yeni Azərbaycan Partiyasını təmsil edən Pənahov Azərbaycanda iki vəzifə tutan məmurlardan biridir. O, paralel olaraq Bakı Dövlət Universitetinin ümumi fizika kafedrasının müdiri vəzifəsini daşıyır. Bildirək ki, prosedura görə MSK üzvlərini Milli Məclis parlamentdə təmsil olunan çoxluq, bitərəflər və azlıqda olan partiyaların irəli sürdüyü namizədlər əsasında formalaşdırır. Pənahovun istefasından sonra YAP yeni namizəd irəli sürəcək və ya qurumdakı əvəzedici üzv partiyanın yeni təmsilçisi kimi təsdiq olunacaq" deyə KİV yazırdı. Lakin sonradan bu iddialar öz təsdiqini tapmadı.

Maraq üçün əlavə edək ki, M.Pənahovun səhhəti səbəbindən istefaya göndəriləcəyi barədə ilk xəbər uzaq 2010-cu ildə yayılıb. Həmin vaxt cəmi 10 il bu postu tutan Məzahir müəllimin xəbərə reaksiyası belə olmuşdu: ""Siz məndən yazılanlara çox da fikir verməyin. 10 ildir yazırlar. Ancaq görürsünüz ki, gözünüzün qarşısındayam... Gəlin məsələləri dramatikləşdirməyin".

Məlumat üçün bildirək ki, MSK-nın tam tərkibinin, o cümlədən sədri və üzvlərinin səlahiyyət müddəti 5 il-dir. MSK üzvləri Azərbaycan Respublikası Milli Məclisi tərəfindən seçilir. Hazırkı MSK-nın yeni tərkibi sonuncu dəfə 2021-ci il aprelin 27-də formalaşdırılıb. Göründüyü kimi, Məzahir müəllimin 75 yaşının tamam olacağı günlərdə indiki MSK-nın səlahiyyət müddəti də bitəcək və onun yenidən formalaşdırılması prosesi baş verəcək. Bu zaman Mərkəzi Seçki Komissiyasının müəyyən qədər yeni tərkibdə təsdiqlənməsi və təqaüdə çıxması səbəbindən Pənahovun həmin tərkibdə olmaması realdır.

***Sənan Mirzə***

35_27 IYUI-QARA.qxd 9/18/2025 9:16 PM Page 4



# Rusiyadan Azərbayaca qarşı hansı təhlükə var?

## Ekspert hesab edir ki, Azərbaycanın dövlət cihazı bütün prosesləri və baş verəcək hadisələri əvvəlcədən proqnozlaşdıra bilir və kəşfiyyat hesabatları əsasında preventiv tədbirlər görəcək

***"Azərbaycan-Rusiya münasibətlərində diplomatik-siyasi gərginliklə paralel şəkildə kəşfiyyat sahəsində də ciddi mübarizə gedir. Mümkündür ki, Rusiya Federasiyası Cənubi Qafqazdakı kəşfiyyat əməliyyatlarını son zamanlar Balkan regionunda artan fəallığı ilə sinxronlaşdırır. Kreml Balkan regionunda Bosniya müharibəsinə son qoyan 1995-ci ilin dekabrında imzalanmış Deyton sazişini ləğv etmək səylərini davamlı hala gətirib".***

"Unikal" xəbər verir ki, bu fikirləri siyasi şərhçi Aqşin Kərimov irəli sürüb. O bildirib ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu yaxınlarda Moskvada Bosniya və Herseqovinanın ərazi subyekti olan Serb Respublikasının prezidenti ilə görüşü və Qərbin regionda təsirlərinə qarşı bəyanatları həmin əməliyyat modelində diqqət çəkir: "Qərbə meydan oxumaq tərzini NATO üzvləri olan Polşa və Rumıniyanın hava məkanlarına müdaxilə ilə yeniləyən Rusiya Avropada böyük kəşfiyyat hazırlığına başladığını sətiraltı elan edir. Yəqin ki, Rusiya Avropa və Cənubi Qafqazdakı kəşfiyyat mexanizmlərini eyni anda işə salmağı hədəfləyir. Azərbaycanda və Ermənistanda Kremlin çoxşaxəli strategiyasına dəstək olacaq ictimai kampaniyanın təşkili prosesi tamamlayan akt kimi şərh oluna bilər. Bu yaxınlarda "The İnsider" nəşrinin rus redaksiyası tərəfindən yayımlanmış və kəşfiyyat məlumatlarına istinad edən məlumatları Kremlin Cənubi Qafqazda "eyni anlı əməliyyatlara" hazırlıq keçdiyini göstərməyə imkan verir. Məlumata əsasən, Azərbaycan trekinə QRU-nun zabiti Valeri Çernışov nəzarət edib. Moskva respublikanın tanınmış məmurları, hərbi zabitləri və ictimai xadimləri haqqında "fon hesabatları" alaraq Azərbaycanda Rusiya maraqlarını Türkiyəyə qarşı tarazlıq kimi irəli sürə bilən təşkilatların demək olar ki, olmamasından narahatlığını ifadə edib.



Erməni trekinə QRU-nun digər zabiti Dmitri Avanesov nəzarət edib. "The İnsider" yazır ki, o, Ermənistan hökumətindəki "köstəbək"dən xəbərlər əldə edib. Həmin materiallarda o, "Saqqal" əməliyyat kod adı altında görünüb.

Bu məlumatlardan Rusiyanın Balkan regionu, NATO üzvü olan Avropa ölkələri, Azərbaycan və Ermənistan üzərindən 4 ayaqlı əməliyyat modelini gündəmə gətirdiyi sezilir. Onsuz Azərbaycanla Rusiya arasındakı gərginliyin bir ayağı Ermənistanla əlaqəli idi, çünki Bakının İrəvan üzərində ciddi təsir imkanları əldə etməsi və nəticə əsaslı fürsətə çevirmək qabiliyyəti Kremli narahat edirdi".

A.Kərimov onu da qeyd edib ki, Azərbaycan Respublikası Rusiya xüsusi xidmət orqanlarının, o cümlədən Xarici Kəşfiyyat Xidməti, Federal Təhlükəsizlik Xidməti və Baş Kəşfiyyat İdarəsinin regionlararası əməliyyat keçidlərini yaxşı izləyir. Onun sözlərinə görə, Rusiyanın Azərbaycandakı bəzi kəşfiyyat əməliyyatları aparmasının ifşa edilməsi Bakının qabaqlayıcı strategiyası haqqında aydın təsəvvür formalaşdırır: "Ehtimal ki, Rusiyanın planları ifşa edilməsə idi, ona Gürcüstandakı kəşfiyyat şəbəkəsi də dəstək üçün kampaniya başladacaqdı. Bunlara baxmayaraq, son zamanlardakı Azərbaycanla əlaqədar bəzi kütləvi rəyyaratma kampaniyasının arxasında kəşfiyyat subyektlərinin dayandığı ehtimalı da güclüdür. Cəmiyyəti parçalayan fikirlərin tirajlanması, informasiya lentlərində ictimai gərginliyin üzərinə yanacaq tökən yönləndirilmiş məlumatların yayılması, ardınca Xankəndidə erməni sakinin silahlı təxribata cəhd göstərməsi vahid bir orqanizmin ayrı-ayrı fraqmentləri idi. Rusiyanın Azərbaycanda Moskva siyasətinə əsaslanan QHT-lər yaratmaq barədə planı ilə həmin epizodları birləşdirəndə prosesin cövhəri açıla bilər. Lakin başqa sual meydana çıxır: Rusiyaya bu marşrutda hansı xarici dövlətlər dəstək verir? Hər halda, Azərbaycanın dövlət cihazı bütün prosesləri və baş verəcək hadisələri əvvəlcədən proqnozlaşdıra bilir və kəşfiyyat hesabatları əsasında preventiv tədbirlər görəcək. Bundan başqa, Azərbaycanda Rusiyanın təlimat və direktivləri ilə hərəkət edən siyasi dairələrin spektrini müəyyənləşdirmək üçün addımlar atılacağını istisna deyil".

***S.Əli***



# Uzun müddət dəyişdirilməyən şəbəkə şifrələri asanlıqla sındırılır - İKTA

***Azərbaycanın telekommunikasiya və poçt sahələrində tənzimləyici qurumu İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyində (İKTA) internet telekommunikasiya xidmətləri göstərən operatorların və provayderlərin fəaliyyəti ilə bağlı müzakirələr aparılıb.***

"Unikal" xəbər verir ki, tədbirdə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının tərkibində təmsil olunan hüquq-mühafizə orqanlarının və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin nümayəndələri, eyni zamanda internet telekommunikasiya xidmətləri göstərən operator və provayderlərin təmsilçiləri iştirak ediblər.

Müzakirələrdə telekommunikasiya xidmətləri üzrə məlumatların emalı, mühafizəsi və qanunvericilikdə nəzərdə tutulmuş müddət bitənədək saxlanılması məsələləri gündəmə gətirilib. Qanunvericiliyin tələblərinin icrasının zəruriliyi bir daha vurğulanaraq bildirilib ki, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun 48-ci maddəsinə əməl edilməməsi kibercinayətlərin vaxtında aşkarlanmasına mane olur və inzibati məsuliyyət yarada bilər.

Görüşdə, həmçinin operator və provayderlərin uçota alınması, müvafiq öhdəliklərin icrası və informasiya təhlükəsizliyinin təmininə dair vəzifələri müzakirə olunub. İştirakçılar şəbəkə infrastrukturunun tələblərə uyğun olduğunu qeyd etməklə yanaşı, məlumatların qorunması və saxlanması zamanı üzləşdikləri çətinliklər barədə də fikir mübadiləsi aparıblar.

Vurğulanıb ki, internetdə informasiya təhlükəsizliyinin təşviqi gücləndirilməlidir. Xüsusilə fərdi evlərdə, mənzillərdə və müəssisələrdə "Wi-Fi" şəbəkələrinin qurulması zamanı təhlükəsizlik qaydalarına riayət olunmaması ciddi risklər yaradır. Sadə və uzun müddət dəyişdirilməyən şifrələr şəbəkələrin asanlıqla sındırılmasına səbəb olur. Bəzi hallarda isə istifadəçilər şifrsiz internetdən yararlanırlar.

Görüşün yekununda operator və provayderlərin qanunvericiliyin tələblərini daima nəzarətdə saxlamaları, informasiya təhlükəsizliyinin təmini üçün maarifləndirici fəaliyyətləri genişləndirməsi və istifadəçilərin təhlükəsizlik qaydaları barədə məlumatlandırılmasının gücləndirilməsi barədə razılıq əldə olunub.

# Ermənistan vətəndaşlarının məhkəməsi gələn həftə davam etdiriləcək

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi gələn həftə davam etdiriləcək.***

"Unikal" xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) məhkəmə iclası sentyabrın 22-nə təyin olunub.



Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:17 PM Page 5



# Prezident Avropa İttifaqının Genişlənmə üzrə komissarını qəbul edib



***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 18-də Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosu qəbul edib.***

"Unikal" xəbər verir ki, Marta Kos Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəlilədilməsi istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə dövlət başçısına təbriklərini çatdırıb.

Qonaq deyib ki, Avropa İttifaqı regionda davamlı sülhün təmin olunmasına yönəlmiş səylərə və Azərbaycanın humanitar minatəmizləmə sahəsindəki fəaliyyətinə dəstəyini bundan sonra da davam etdirəcək.

Komissar Marta Kos Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın qurulduğunu deyərək, həmçinin nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu vurğulayıb.

Prezident İlham Əliyev bu ilin mayında Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşünü məmnunluqla xatırlayıb.

Dövlət başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Azərbaycanın regionda sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini vurğulayıb.

Regionda nəqliyyat bağlantılarının yaradılması üçün yaxşı imkanların olduğunu deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə yol-nəqliyyat infrastrukturunun qurulması ilə bağlı Azərbaycanın intensiv işlər gördüyünü qeyd edib.

Bu xüsusda Zəngilana gedən avtomobil və dəmir yolu xətlərinin əhəmiyyətini vurğulayıb.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunan dövlət başçısı Azərbaycan qazının hazırda Avropanın 10 ölkəsinə, o cümlədən Avropa İttifaqına üzv 8 dövlətə ixrac olunduğu dedi və ixrac coğrafiyasının genişləndiyini qeyd edib.

Görüşdə Orta Dəhliz ilə Mərkəzi Asiyadan Azərbaycana gələn yüklərin həcmində əsaslı dərəcədə artımın müşahidə olunduğu bildirildi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş nazir TDT hökumət başçılarının görüşündə iştirak etdi

***Sentyabrın 18-də Qırğız Respublikasının Bişkek şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin görüşü keçirilib.***



Nazirlər Kabinetinn Mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, Baş nazir Əli Əsədov görüşdə iştirak edib.

Tədbirdə çıxış edən Ə.Əsədov Türk dövlətlərinin səylərinin birləşdirilməsinin sabitlik, təhlükəsizlik və rifahın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Görüşün nəticələrinə dair Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin Birgə Bəyanatı qəbul edilib.

# Prezidentdan Counz Robert Qəri ilə bağlı sərəncam

***BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Counz Robert Qəri "Şöhrət" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncamla o, bu mükafata Azərbaycan neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə layiq görülüb.



# "Ağdama ilk köçün payızda reallaşacağını gözləyirik" - Emin Hüseynov

***"Ağdam və Füzuli rayonlarında "Böyük qayıdış" 1-ci dövlət proqramında nəzərdə tutulmuş layihələrin icrası qrafikə uyğun olaraq davam etdirilir. Ağdam şəhərinə bu ilin payız aylarında ilk köçün reallaşacağını gözləyirik".***



"Unikal" xəbər verir ki, bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

Qeyd olunub ki, Ağdamda ikinci yaşayış kompleksinin tikintisi yekunlaşmaq üzrədir: "Bilirsiniz ki, dördüncü və beşinci yaşayış komplekslərinin tikintisi davam edir. Eyni zamanda sentyabr-oktyabr aylarında üçüncü yaşayış kompleksinin tikintisinə başlayacağıq və ilin sonuna doğru birinci yaşayış kompleksinin tikintisinə start veriləcək".

# Marta Kos: Aİ Cənubi Qafqazda sülh prosesində fəal iştiraka hazırdır

***Avropa İttifaqı (Aİ) Cənubi Qafqazda sülhü dəstəkləyir və fəal iştiraka hazırdır.***



"Unikal" xəbər verir ki, bu barədə Aİ-nin Genişlənmə üzrə komissarı Marta Kos "X"də yazıb.

"Bu gün Bakıda Azərbaycan Prezidenti İlham Əliyev ilə səmərəli və açıq fikir mübadiləsi apardıq. Bağlantı məsələsinə xüsusi diqqət ayırmaqla münasibətlərimizi müzakirə etdik. Həmçinin, Vaşinqtonda paraflanmış sülh sazişi münasibətilə Prezidenti təbrik etdim. Aİ regionda davamlı sülhü dəstəkləyir və fəal iştiraka hazırdır",- o əlavə edib.

# MEDİA-nın Müşahidə Şurasının iclası keçirildi

***18 sentyabr 2025-ci il tarixində Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası baş tutub.***

"Unikal" xəbər verir ki, Müşahidə Şurasının sədri Dağbəyi İsmayılovun rəhbərliyi ilə keçirilən görüşdə Müşahidə Şurasının üzvləri və Agentliyin İcraçı direktoru iştirak edib.



Görüşdə Agentliyin son dövrdə həyata keçirdiyi fəaliyyətlər, qlobal əməkdaşlıq istiqamətində atılan addımlar və təşkil edilən beynəlxalq tədbirlərin əhəmiyyəti müzakirə olunub. Eyni zamanda, yaxın müddətdə reallaşdırılması nəzərdə tutulan mühüm beynəlxalq layihələrin təşkilinə dair fikir mübadiləsi aparılıb.

Müzakirələr zamanı rəqəmsal transformasiya dövründə medianın yeni reallıqları, informasiya mühitində yaranan çağırışlar və bu şəraitdə davamlı inkişafın təmin olunması yolları diqqət mərkəzində olub. Şura üzvləri media sektorunda müasir yanaşmaların tətbiqi, innovativ imkanların dəyərləndirilməsi və beynəlxalq təcrübədən faydalanmağın vacibliyini vurğulayıb. İclasda həmçinin Agentliyin gələcək fəaliyyət istiqamətləri, tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi və qlobal informasiya mühitində Azərbaycanın mövqeyinin möhkəmləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴺ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Tədris ili üzrə peşə təhsil müəssisələrinə qəbul olanların sayı açıqlandı

***22 iyul-13 sentyabr tarixlərini əhatə edən 2025/2026-cı tədris ili üzrə peşə təhsil müəssisələrinə tələbə qəbulu 27021 nəfərin qəbul olunması ilə başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Peşə Təhsili üzrə Dövlət Agentliyi məlumat yayıb. Bildirilib ki, qəbul olunan tələbələrin 84%-i dövlət sifarişi əsasında, 16%-i isə ödənişli əsaslarla təhsil almağa başlayıb.

2025/2026-cı tədris ili üzrə tələbə qəbulu 78 peşə təhsili müəssisəsində 152 ixtisas üzrə aparılıb. Bu il peşə təhsili müəssisələrinə qəbul olanların 39%-ni qadınlar təşkil edir. Müraciət edənlərin orta yaşı 21, ən aşağı yaş 13, ən yüksək yaş isə 78 olub. Dual peşə təhsili proqramı üzrə 1777 nəfər, yüksək texniki peşə təhsili səviyyəsi üzrə isə 2590 nəfər qəbul olunub. Həmçinin, 65 nəfər ali təhsilli, 298 nəfər orta ixtisas təhsilli şəxs, 84 nəfər xarici vətəndaş peşə təhsili müəssisələrinə qəbul olunub.

25-2026-cı tədris ilində 10 yeni ixtisasın tədrisinə start verilib. . Hazırlıq işləri çərçivəsində texniki və yüksək texniki peşə təhsili səviyyələrində təhsil proqramlarında yeniliklər və müvafiq dəyişikliklər tətbiq olunub. Həmçinin cari tədris ili üçün tələbələrin bilik səviyyəsinin artırılmasına dəstək məqsədilə 72 adda dərslik çap olunub. Buraya müəlliflərimiz tərəfindən hazırlanmış, eyni zamanda xarici dildən azərbaycan dilinə tərcümə edilmiş dərsliklər daxildir.

Əmək bazarının tələblərinə uyğun olaraq, tələbələr arasında ən çox seçilən aşpazlıq, mühasibat uçotu, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, əməliyyatçı-mühasib, bərbər-vizajist-manikürçü, qrafik dizayn, avtomobil üzrə elektrik, veb dizayn və proqram təminatı, kompüterlərin təmiri və xidməti üzrə texnik, eləcə də veb dizayner və proqram təminatçısı ixtisasları olub.

35_27 IYUI-QARA.qxd 9/18/2025 9:17 PM Page 6



# Ölkənin kənd təsərrüfatına ciddi təhlükə

## Deputat qəhvəyi mərmər bağacığının təsərrüfata fəsadlar törədəcəyi xəbərdarlığını verdi



***"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mövcud iqtisadi potensialdan daha səmərəli istifadə olunması, idxalı əvəzedən ixracyönümlü istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması və inkişaf etdirilməsi istiqamətində verdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində qeyri-neft sektorunda istehsalın genişlənməsi ölkəmizin ixrac imkanlarının artmasına müsbət təsir göstərir, regionlarda yetişdirilən məhsulların ixracı respublikaya böyük həcmdə valyuta gətirir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin deputatı Asif Əsgərov deyib. Deputat bildirib ki, Zaqatala rayonu üçün ənənəvi, ixrac potensialı yüksək olan və ən əsası, əhalinin məşğulluğunun təmin edilməsində böyük əhəmiyyəti olan sahələrdən biri fındıqçılıqdır. Zaqatala rayonunda mövcud olan fındıq sahələri Respublikada ən geniş ərazilərə malik olmaqla (20190,4 ha), rayonun iqtisadiyyatının və kəndlərdə yaşayan əhalinin ailə büdcələrinin əsasını təşkil edir.

"2025-ci ildə fındıq bağlarında əvvəlki illərlə müqayisədə məhsuldarlıq aşağı düşmüşdür. Buna səbəb, son illərdə Gürcüstan Respublikasından ölkəmizə keçərək Zaqatala rayonu ərazisində yayılmış "Qəhvəyi mərmər bağacığı" adlanan karantin zərərvericisidir. Zərərvericinin yayılma arealı, əsasən meşə massivləri, meşə massivləri ilə əhatə olunmuş fındıq bağları və digər kənd təsərrüfatı bitkiləri becərilən sahələridir.

Qəhvəyi mərmər bağacığın yetkin fərdləri və sürfələri yük daşımaları, nəqliyyat vasitələri, avadanlıqlar,konteynerlər, təzə meyvə-tərəvəz və digər vasitələrlə yayılır. Eyni zamanda yetkin fərdləri təbii yolla (uçmaqla) 35-100 km-dək məsafə qət edə bilirlər. Yetkin fərd bir dəfəyə 25-30 yumurta qoyur. Bu da onların sürətlə çoxalmasına səbəb olur.

Bu zərərverici fındıq da daxil olmaqla 300-dən çox bitki növü ilə qidalanaraq kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını əhəmiyyətli dərəcədə aşağı salır, ekologiyaya da ciddi ziyan vururlar. Qəhvəyi mərmər bağacığı yaşayış yerlərində bəzi insanlarda allergiya yaradır.

Məlumat üçün qeyd edək ki, 2010-cu ildə ABŞ da 33 ştatda qəhvəyi mərmər bağacığının vurduğu ziyan 21 milyard dollar olmuşdur. Təkcə Nyu-york ştatında alma, üzüm, şaftalı, albalı, paxlalı bitkilər, qarğıdalı və xiyara vurduğu ziyan 878 milyon dollar təşkil etmişdir. 2015-ci ilin ikinci yarısından etibarən Rusiya və Abxaziyanın rütubətli subtropik ərazilərində bu ziyanvericinin kütləvi artımı baş vermişdir. 2016-2017-ci illərin nəticələrinə görə bu ziyanverici Rusiyada, Abxaziyada, Gürcüstanda meyvə, subtropik bitkilər və fındıq məhsulunun miqdarı və keyfiyyətinə böyük ziyan vurmuşdur. Abxaziyada şaftalı, naringi, xurmanın məhsuldarlığı 2-3 dəfə aşağı düşmüşdür. Gürcüstan isə fındıq ixracatında üçüncü yerdən dördüncü yerə enmişdir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi , eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən mübarizə tədbirləri aparılsa da, görülmüş işlər siyarətlənmənin qarşısının alınması üçün kifayət etmir. Belə ki, sıx meşələrin dərinliklərində dərmanlanma aparılması yerüstü texnikalar vasitəsilə faktiki olaraq mümkün deyildir. Qeyd edirik ki, havalar soyuduqca zərərvericilər yaşayış məntəqələrinə, evlərə, təsərrüfat tikililərinə və digər sığınacaqlara qışlama dövrü üçün miqrasiya edirlər. Bu da kimyəvi mübarizəni çətinləşdirir".

***Seymur Əli***

# Azərbaycanda ətin qiyməti süni şəkildə artırılıb? - Dövlət qurumundan reaksiya

***Azərbaycan əhalisinin gündəlik qida rasionunda mühüm yer tutan ət bahalaşmaqda davam edir. Hazırda ölkədəki marketlərdə, eləcə də fərdi sahibkarlara məxsus ət mağazalarında 1 kiloqram dana ətinin qiyməti 20 manata yaxındır, quzu ətinin qiyməti isə 20 manatı keçib.***

Sosial şəbəkələrdə və mətbuatda ətin qiymətinin süni şəkildə artırıldığı iddia edilir. Ətin bahalaşmasına münasibət bildirən Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi isə qeyd edib ki, Azərbaycanda ətin qiyməti tənzimlənmədiyindən sahibkarlar qiymətləri sərbəst müəyyən edə bilərlər. Müştərilər məhsulların arasından qiyməti və istehlak xassələri uyğun olan malı öz ehtiyacına görə seçərək ala bilər.



"Agentlik iri və xırdabuynuzlu heyvan əti bazarında konsentrasiya səviyyəsinin və təchizat zəncirinin mərhələləri üzrə qiymət əmələgəlmə mexanizminin müəyyənləşdirilməsi məqsədilə mütəmadi araşdırmalar aparır. Təhlil nəticəsində müvafiq bazarda bazarın rəqabət vəziyyətinə mənfi təsir edən amillər, o cümlədən hökmran mövqedən və bazar gücündən sui-istifadə, rəqabəti məhdudlaşdıran üfüqi və şaquli sazişlər təsbit edilməyib, müvafiq bazarın çoxiştirakçılı və rəqabətli bazar strukturuna sahib olduğu müəyyən edilib. Müvafiq bazarda qiymətlərin dinamikasına təsir edən bir sıra amillər mövcuddur. Bunlara mövsümi faktorlar, tələbin anidən artması, yem qiymətlərində müşahidə olunan dəyişikliklər, örüş-otlaq sahələrinin azalması, ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi və təklifin azalması, iri və xırdabuynuzlu heyvan sayında azalma və s. aid edilə bilər. Tələb-təklif balansının dəyişməsi isə təchizat zəncirinin son mərhələsində qiymət dəyişikliyinə təsir edir. Rəqabət qanunvericiliyinin tələblərinin pozulması hallarına qarşı dövlət nəzarəti çərçivəsində müvafiq tədbirlər həyata keçirilir. Qiymətlərdəki dəyişikliklərin rəqabət qanunvericiliyinin pozulmasından irəli gəldiyini sübut edən sənədlər və məlumatlar Rəqabət Məcəlləsinin tələblərinə uyğun olaraq təqdim edildiyi təqdirdə, həmin məsələyə mahiyyəti üzrə baxıla bilər", - deyə "report"a verilən məlumatda qeyd olunub.

## Əli Əsədov: "Naxçıvan Sazişi uğurlu inkişaf yolunun başlanğıcı oldu"

***Ötən il imzalanmasının 15 illiyini qeyd etdiyimiz Naxçıvan Sazişi təşkilatımızın uğurlu inkişaf yolunun başlanğıcı oldu.***

Bunu Baş nazir Əli Əsədov Bişkekdə Türk Dövlətləri Təşkilatının hökumət başçılarının və onların müavinlərinin ilk toplantısında bildirib.

Əli Əsədov deyib ki, bu müddət ərzində ortaq tariximiz, mədəniyyətimiz və dilimiz əsasında çoxşahəli əməkdaşlıq qurmuşuq: "Təşkilatımız bir çox istiqamətdə fəaliyyət göstərir. Coğrafi əhatəsi, təbii resurs potensialı və insan kapitalı təşkilatımızı beynəlxalq aləmdə strateji əhəmiyyətə malik quruma çevirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Biz təşkilatımızın bölgədə və qlobal miqyasda siyasi və iqtisadi nüfuzunun artmasını tam dəstəkləyirik. Azərbaycan Türk Dövlətləri Təşkilatının üzvü olan bütün dövlətlərlə ikitərəfli müstəvidə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri qurub".

Baş nazir onu da qeyd edib ki, Zəngəzur dəhlizinin açılması Orta Dəhlizin ötürücülük qabiliyyətini artıracaq. "Nəqliyyat sahəsində əməkdaşlığımız artan xətlə inkişaf edir və regional əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verir. Türk dövlətlərinin ərazisindən keçən və təkcə regionumuz üçün deyil, həm də qlobal ticarət və nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından strateji rol oynayan Orta Dəhlizin önəmi getdikcə artmaqdadır. Bu kontekstdə Azərbaycanın əsas ərazisinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi barədə bu yaxınlarda Vaşinqtonda əldə edilmiş razılaşmalar tarixi önəm kəsb edir. Zəngəzur dəhlizinin açılması bütün region dövlətlərinə yeni iqtisadi və tranzit fürsətləri qazandırmaqla yanaşı, Orta Dəhlizə inteqrasiya olunmaqla, onun ötürücülük qabiliyyətini artıracaq", - deyə Baş nazir vurğulayıb.

## Sahibə Qafarova Malayziyanın Baş naziri ilə görüşüb

***Milli Məclisin sədri Sahibə Qafarova Malayziyanın Baş naziri Ənvər İbrahim ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib. Baş nazir Ənvər İbrahim Azərbaycanın dinamik inkişafını izlədiklərini söyləyib, Azərbaycanın əldə etdiyi uğurların, xüsusən iqtisadi tərəqqinin, beynəlxalq nüfuzunun artmasının Malayziyanı sevindirdiyini bildirib.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanla Malayziya arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin əhəmiyyətini qeyd edib. Ölkələrin müxtəlif beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyindən məmnunluq ifadə olunub.

Görüşdə parlamentlərimiz arasında əməkdaşlıq məsələləri haqqında fikir mübadiləsi aparılıb.

Milli Məclisin sədri Azərbaycanın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən nəhəng layihələr, keçmiş məcburi köçkünlərin öz yurdlarına qaytarılması istiqamətində görülən işlər haqqında məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:17 PM Page 7





## Zakir Həsənov Çində səfərdədir

***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Çin Xalq Respublikasının milli müdafiə naziri admiral Dong Junun dəvəti ilə 12-ci Syanşan Forumunda iştirak etmək üçün Pekində işgüzar səfərdədir.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən xəbərə görə, sentyabrın 18-də müdafiə naziri "Beynəlxalq düzənin qorunması və dinc inkişafın təşviqi" şüarı ilə keçirilən 12-ci Pekin Syanşan Forumunun rəsmi açılış mərasimində iştirak edib.

Forum çərçivəsində general-polkovnik Zakir Həsənov çinli həmkarı admiral Dong Jun və Mərkəzi Hərbi Şuranın Avadanlıqların İnkişafı Departamentinin direktoru general Xu Xueqiang ilə görüşüb.

Keçirilən görüşlər zamanı ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edilib ki, 100-dən çox ölkənin müdafiə qurumlarının rəhbər şəxslərinin, beynəlxalq təşkilatların və analitik mərkəzlərin nümayəndələrinin, eləcə də yüksək rütbəli hərbçilərin, hərbi və təhlükəsizlik məsələləri üzrə nüfuzlu ekspertlərin iştirakı ilə keçirilən forum sentyabrın 19-dək davam edəcək.

## Gənclər və idman komitəsi 4 dinləmə keçirəcək

***Gənclər və idman komitəsi 4 dinləmə keçirəcək. Bu barədə məsələ Milli Məclisin Gənclər və idman komitəsinin 2025-ci il payız sessiyası üçün iş planında yer alıb.***

"Qərbi Azərbaycana qayıdış" da gənclərin rolu mövzusunda xaricdə və ölkədə təhsil alan tələbələrin iştirakı ilə, Gənclər və Gənclər Təşkilatlarının Azərbaycançılıq ideologiyasının təbliğində rolu mövzusunda, "Qərbi Azərbaycana qayıdış" da gənclərin rolu mövzusunda xaricdə və ölkədə təhsil alan tələbələrin iştirakı ilə və "Azərbaycanda yerli demokratiyanın, özünüidarəetmənin və regionların inkişafında Heydər Əliyev irsi" mövzularında ictimai dinləmə keçiriləcək.

## AMB bu barədə məcburi göstəriş verdi

***Azərbaycan Mərkəzi Bankı (AMB) üç valyuta mübadilə məntəqəsinə - "Delta Capital", "Money Shop" və "Meta-Kapital"a məcburi göstəriş tətbiq edib.***

Bu barədə "Unikal" AMB-yə istinadən xəbər verir. Məlumata görə, adıçəkilən şirkətlər tərəfindən tərəfindən "Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası"nın 7.1-ci bəndinin tələbləri pozularaq 2025-ci ilin avqust ayının sonuna hesabatların təqdim edilməməsinə görə "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 13-7.1.2-ci maddəsinin tələblərini rəhbər tutaraq AMB tərəfindən "Delta Capital" , "Money Shop" və "Meta-Kapital"a bu hesabatları qanunvericiliklə müəyyən edilmiş vaxtda təqdim edilməsi ilə bağlı icrası məcburi göstəriş verilib.

# "Qeyri-neft sektorunda çalışanların gəlirləri aşağı düşəcək"

## Xalid Kərimli: "Bu güzəşt özəl sektorun işçi ilə bağlı xərclərini azaldırdı, ola bilər ki, əməkhaqqılarının gizlədilməsinə maraq yaransın"



***İqtisadçı Xalid Kərimli "Unikal"a müsahibə verib. O, özəl sektorda gəlir vergisinə tətbiq olunan güzəşt müddətinin başa çatmasından, gələn il pensiya və maaşlarda nə qədər artım ola biləcəyindən, növbəti ilin büdcəsində neftin qiymətinin 65 dollardan götürülməsindən və Dövlət Neft Fondundan büdcəyə transfertin azaldılmasından danışıb.***

***-Xalid bəy, 2026?cı ilin 1 yanvarından etibarən Azərbaycanda özəl sektorda gəlir vergisinə tətbiq olunan güzəştin müddəti başa çatacaq. Bu müddətin uzadılıb-uzadılmayacağı barədə rəsmi açıqlama verilməyib. Amma 2026-cı ilin dövlət büdcəsi gəlirlərinin 2 milyard 567 milyon manatı fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların payına düşəcəyi proqnozlaşdırılır. Bu isə illə müqayisədə 29 % çoxdur. Bu baxımdan güzəştin artırılmayacağı ehtimal olunur. Sizcə, bu güzəştin uzadılmamasının hansı təsirləri olacaq?***

-2019-cu ilin yanvar ayından tətbiq edilən bu güzəştin əsas məqsədi cəmiyyətdə işəgötürənlərin və işçilərin əməkhaqlarının rəsmiləşdirilməsinə, habelə vergilərin ödənilməsinə marağın artırılmasına nail olmaq idi. Güzəşt yalnız qeyri-dövlət və qeyri-neft sektoru üçün nəzərdə tutulmuşdu. Beləliklə, neft sektoruna aid olmayan bütün özəl şirkətlər bu güzəştdən yararlanmış oldular. Bu güzəştin müddəti 7 il müəyyən edilmişdi. Hazırkı proqnozlar isə onu göstərir ki, dövlət bu müddəti uzatmağı planlaşdırmır, məhz bu səbəbdən də artıq vergi yığımlarının artacağı gözlənilir. Bu isə onu deməyə əsas verir ki, həm şirkətlərin, həm də vətəndaşların üzərinə düşən vergi yükü əvvəlki səviyyəyə qayıdacaq. Belə ki, insanların sərəncamında qalan gəlir aşağı düşəcək. Rəsmi maaş alan şəxslərin gəlirləri 7 faiz azalacaq. Hazırda neft və dövlət sektorunda olan vergi bizə də tətbiq olunacaq. Orada 3 faiz pensiya fondu, 14% isə gəlir vergisidir. Hazırda pensiya fonduna 10 faiz ödəniş edirik, o, 3%-ə düşəcək. Buradan 7 faiz azalacaq. Əvəzində 14% vergi verəcəyik. Beləliklə, dövlət və neft sektorunda çalışan şəxslərlə bərabər, özəl sektorda çalışanlar da eyni vergi yükünə tabe olacaqlar.

2500 manatdan çox əməkhaqqı alanlarda isə bu məbləğdən çox olan hissəsində 25 faiz vergi yaranmış olacaq. Burada işçi ilə yanaşı, sahibkarın da xərcləri artacaq. Sahibkarın işçiyə görə ödədiyi məbləğ 7-8 faiz çoxalacaq. İşçinin əməkhaqqı fonduna 15 faiz ödəyirdi, indi isə 22 faiz olacaq. Bu güzəşt özəl sektorun işçi ilə bağlı xərcləri azaldırdı. Ola bilər ki, əməkhaqqılarının gizlədilməsinə maraq yaransın. Ona görə ki, sahibkarın xərci 7 faiz artacaq, işçinin maaşından isə 7% daha çox tutulma olacaq.

***-Məlum olduğu kimi, hər ilin yanvar ayında maaş və pensiyalarda artım olur. 2026-cı ilin əvvəlində maaş və pensiyalarda nə qədər artımların olacağı gözlənilir?***

-Pensiyalarda artım gözlənilir. Dəqiq rəqəm dekabr ayının sonu bilinəcək. Ay bitəndən sonra həmin statistika 40 gün sonra təqdim olunur. Bu baxımdan fevralın əvvəli faizləri daha dəqiq bilirik. Hazırda 7 aylıq əməkhaqqı artımı 9,5 faizdir. Əgər bu rəqəmlər aşağı düşməsə, gələn il pensiyalar 9,5 faiz indeksasiya ediləcək. Bir daha qeyd etmək istərdim ki, dəqiq rəqəm gələn ilin fevral ayında bilinəcək. Bu rəqəm artıb-azala bilər. Büdcənin indiki strukturuna baxanda görürük ki, ciddi surətdə maaş artımından söhbət getmir. Ola bilər ki, hansısa strukturda tənzimlənsin. İndiki büdcə paketində minimum əməkhaqqının artmasından hələlik söhbət getmədiyini görürük. Amma hansısa dövlət müəssisəsi öz maliyyə imkanlarına uyğun fərdi qərarlar verə bilər. Pensiyalarda isə artım olacaq.

***-Məlum olduğu kimi, Azərbaycanın 2026-cı il üçün icmal və dövlət büdcələrinin layihələri hazırlanarkən "Azeri Light" markalı neftin 1 barelinin qiyməti 65 ABŞ dolları götürülüb. Bu, 2025-ci illə müqayisədə 5 ABŞ dolları azdır. Qarşıdakı dövrdə neftin qiymətində hansı dəyişikliklər gözlənilir?***

-Dövlətin indiki proqnoza daxil etdiyi 65 dollar optimist qərardır. Gələn il neftin qiyməti ilə bağlı müxtəlif proqnozlara baxmışam. Bu proqnozlar dekabr ayında daha çox olur. 2026-cı ilin neft qiymətlərinin 55-65 dollar arası olacağı gözlənilir. Bu baxımdan 65 dollar ən optimist ssenarilərdədir.

***-Azərbaycanın 2026-cı il üçün dövlət büdcəsində Dövlət Neft Fondundan (ARDNF) transfertin məbləği 12 milyard 750 milyon manat nəzərdə tutulub. Bu, 2025-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 11,95 % azdır. ARDNF-dən planlaşdırılan transfert proqnozlaşdırılan büdcə gəlirlərinin 33,2 %-i qədərdir. Bu isə 4,6 faiz azdır. ARDNF-dən transfertin azaldılmasının səbəbi nə ilə bağlıdır?***

-Dövlət Neft Fondunun ötən il də transferti təxminən 12 milyard idi. Son dəyişikliklərdə 1 milyard dollar artırıldı. Bu da hərbi və müdafiə xərclərinə yönəldildi. Yəqin ki, hökumət özü üçün qızıl orta müəyyənləşdirib. Yaxın illərdə 12 milyard ətrafında transfert gözləyir. Çünki Dövlət Neft Fondunun qorunması bizim əsas məqsədimizdir. Göründüyü kimi, neft qiymətləri aşağı proqnozlaşdırılıb. Qaz qiymətləri isə dəyişmir. Həmçinin, neft həcmi azalır. Ona görə çox xərcləmək Dövlət Neft Fondunu azalda bilər. O baxımdan hökumət ehtiyatlı davranır.

***Anar Kəlbiyev***

# Ölkənin dərman bazarındakı problemlər kritik həddə çatıb

## Həftənin araşdırması: keyfiyyət aşağı, qiymət baha... - Dərdə dəva əvəzinə yeni dərd?

***Azərbaycanda satılan dərman preparatlarının keyfiyyəti ilə bağlı şübhələr azalmaq bilmir. Üstəlik, bu mövzuda hər gün yeni tükürpədici iddialar ortaya atılır. Bu günlərdə "Cebheinfo" saytı yazıb ki,***

Bakıda fəaliyyət göstərən Alman apteklərindən alınan dərman preparatlarının keyfiyyəti, digər apteklərdə satılanlarla eyni deyil. Vətəndaşlar həmçinin Gürcüstandan alınan dərmanların Azərbaycana nisbətən daha keyfiyyətli olduğunu iddia edirlər. Hətta elə insanlar var ki, orqanizmin gündəlik ehtiyac duyduğu mineral kompleksi vitaminlərin ABŞ-dən sifarişlə gətirib istifadə edirlər.



Belədə isə sual ortaya çıxıb: Azərbaycana gətirilən dərman preparatlarının keyfiyyəti niyə aşağıdır, tərkibinə müdaxilə edilir? Həkim-farmakoloq, tibb eksperti Aydın Əliyev mövzu ilə bağlı bildirib ki, bu gün əhalini ən çox maraqlandıran məsələlərdən biri dərman preparatlarının qiyməti və keyfiyyətidir: "Dərmanlarla bağlı qiymət fərqləri, keyfiyyət məsələsi, onların xaricdə daha ucuz, bizdə isə dəfələrlə baha olması kimi ciddi problemlər mövcuddur. İnsanların da ixtiyarı var ki, dərmanların apteklərdə necə saxlanılması, real qiyməti ilə maraqlansınlar. Yəni iki əsas məsələ var, dərman istehsal edən zavodlar açılmalı və vətəndaşlarımız öz hüquqlarını bilməli, onlardan istifadə etməlidirlər. Maraqlıdır, niyə Türkiyədə qiyməti 3 manat olan dərman Azərbaycanda 30 manata satılır. Məhz vətəndaş bu sualı aidiyyəti qurumlara verməli və cavab tələb etməlidir".

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov isə bir neçə gün öncə elə adı çəkilən komitənin iclasında bəyan edib ki, hazırda dərman vasitələrinin keyfiyyəti, əlçatanlığı, qiymətləri cəmiyyətimizi narahat edən əsas məsələdir. O bildirib ki, bu baxımdan "Dərman vasitələri haqqında" Qanuna mütəmadi dəyişikliklər edilir.

Ekspertlər isə çıxışlarında vurğulayırlar ki, yalnız psixotrop, onkoloji, şəkərli diabet əleyhinə dərmanlar və bəzi tibbi avadanlıqlar dövlət tərəfindən ölkəyə idxal edilir, yerdə qalan dərmanları kommersiya firmaları ölkəyə idxal edirlər və məsuliyyət də onların üzərindədir. Ilginc məqam isə ondan ibarətdir ki, həmin dərmanlar Səhiyyə Nazirliyinin müvafiq qurumları tərəfindən qeydiyyata alınarkən əsas parametrlərə cavab verə bilər, ancaq sonrakı dövrlərlə bağlı bunu demək çətindir. Vəziyyətdən çıxış yolu isə əczaçılıq məhsulları ilə bağlı ölkədə müstəqil laboratoriyaların olmasıdır. Belə laboratoriyalar olmadığı müddətcə dərmanların real keyfiyyətinə dair mübahisələr davam edəcək.

Ekspertlər deyir ki, dərmanların keyfiyyəti ilə bağlı bu qədər narazılıqlar və narahatlıqlar mövcuddursa, hər halda, səbəbsiz və əsassız deyil. Hesab edilir ki, Səhiyyə Nazirliyi artıq sözdən əməli işə keçməli, dərmanların keyfiyyət parametrlərinə yenidən baxmalıdır. Nazirlik əczaxanalarda formal yoxlamalardan əl çəkməli, üstəlik, bu təftişlərini ölkədə dərman inhisarçısı kimi tanınan şirkətlərdə də aparmalıdırlar. Üstəlik, dərmanlarla bağlı ictimaiyyətə açıq dövlət reyestrinin yaradılması da ekspertlərin təklifləri arasındadır. Onların fikrincə, belədə ölkəyə dərman idxal edən firmalar da məsuliyyət hiss etməyə başlayacaqlar.

Cəmiyyətdə belə bir inanc hakimdir və çox sayda faktlar da sübut edir ki, Azərbaycana dərman idxalında ciddi monopolizm hökm sürür. İllərdir mütəxəssislər SOS siqnalı səsləndirirlər: ölkəmizdə dərman biznesi ayrı-ayrı qrupların monopoliyasında olduğundan istər qiymət, istərsə də keyfiyyət baxımından əczaçılıq məhsulları ilə bağlı şübhələrin, şikayətlərin aradan qaldırılması mümkünsüz görünür. Faktiki olaraq, dərman monopoliyası var, əczaçılığa, maraqlı biznesmenlərə, imkanlı şəxslərə imkan verilmir ki, Azərbaycana müstəqil şəkildə və daha münasib qiymətə, ən əsası da keyfiyyətli dərman preparatları gətirsinlər. Hətta başda Çin olmaqla bəzi ölkələrdəki istehsalçılardan xeyli ucuz, lakin standartlara uyğun dərmanların alınaraq Azərbaycana idxal edilməsi də mümkündür, ancaq bu da yerli dərman bazarındakı monopolistlərin tamahkarlığı ucbatından hələ ki, qeyri-mümkün görünür.

Ölkədə inhisarçılıqla mübarizə istiqamətində köklü qərarların qəbul edildiyi və addımların atıldığı bir vaxtda artıq dərman biznesində də monopolizmin aradan qaldırılmasına əşhədü-ehtiyac var. Əgər bu gün Azərbaycanda bir dərman qonşu ölkələrdən bir neçə dəfə baha satılırsa, yaxud, keyfiyyət baxımından hətta sahə mütəxəssisləri səviyyəsində müzakirə predmetinə çevrilirsə, deməli, yalnız apteklərdəki yoxlamalarla problemin aradan qalxacağına çox da ümid etməyə dəyməz. Problemin kökü dərman idxalı ilə məşğul olan inhisarçı şirkətlərdədirsə, deməli, təftişə də onlardan başlamaq daha effektiv olardı...

***Sənan Mirzə***

# Məzahir Pənahovun oğlu məhkəməni uduzdu

## Yekun qərar: 300 minlik əmlakı keçmiş arvadına qaytaracaq

***Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun oğlu keçmiş arvadının tələb etdiyi bütün əmlakı qaytarmalıdır.***



"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsi bu barədə yekun qərar çıxarıb.

Bir neçə ay əvvəl H.Pənahova əri Məhəmməd Pənahov tərəfindən fiziki şiddətə məruz qalması barədə məlumatlar yaydı. Sonradan oğul Pənahov razı olmasa da, məhkəmə cütlüyün boşanmasına qərar verdi.

Amma həmin vaxt birgə nikah dövründə alınmış əmlak məsələsi həll edilməmiş qalmışdı. Gəlin Pənahova qiyməti 300 min manat təşkil edən qızıl-zinət əşyaları, bahalı kürklər və digər geyimlərini geri ala bilmədiyi, keçmiş əri isə boşanmaq istəmədiyi üçün apellyasiya şikayətləri verdilər.

Bakı Apellyasiya Məhkəməsi əvvəlcə Məhəmməd Pənahovun boşanma qərarına qarşı şikayəti araşdırıb, lakin şikayət təmin edilməyib.

H.Pənahovanın əmlak tələbi isə əsaslı hesab edilib. Nəticədə 300 min manatlıq əşyaların Məhəmməd Pənahovdan alınıb keçmiş arvadına qaytarılması barədə yeni qətnamə çıxarılıb.

Qeyd edək ki, H.Pənahova Məhəmmədlə birlikdə ABŞ-nin Kaliforniya ştatında yaşayıb. Onun sözlərinə görə, evlilik müddətində əri tərəfindən şiddətə məruz qalıb, insidentlərdən birində bətnindəki övladını itirib. 17 ay birgə yaşadıqdan sonra qaldıqları villadan qaçaraq xilas ola bilib.

# Yeni tikilən binaların enerji effektivliyi pasportlaşdırılacaq

***Yeni tikilən yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin bugünkü iclasında müzakirə olunan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, aşağıdakı bina və tikililər istisna olmaqla yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq:

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanuna uyğun olaraq dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmiş binalar (tikililər);

yardımçı və müvəqqəti tikililər;

istixanalar və anbar binaları;

istehsalat binaları;

fərdi yaşayış evləri;

Pasportlaşdırma bu qanun qüvvəyə mindikdən sonra yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları üçün məcburi olacaq, istismarda olan binalara şamil olunmayacaq.

Qeyd edək ki, qanunda binaların enerji effektivliyi üzrə pasportlaşdırılması qaydaları öz əksini tapıb. Həmin qaydalar Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək.

***Anar Kəlbiyev***

# Azərbaycanda "Vahid Mədəniyyət Reyestri" sistemi yaradılacaq

***Azərbaycanda "Vahid Mədəniyyət Reyestri" sisteminin yaradılması nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bununla bağlı Mədəniyyət Nazirliyinə məxsus "Əsaslı Tikinti və Təchizat" MMC hazırlığa başlayıb.

Məlumata görə, sistemin yaradılması üçün ilkin olaraq tələb olunan altsistemlərin satın alınması və tətbiq edilməsi, onların bir-birinə inteqrasiyası həyata keçiriləcək.

İşlərin ehtimal olunan qiyməti 4,5 milyon manatdır.

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:17 PM Page 9






## Bakı aeroportundan Formula 1-lə bağlı sərnişinlərə müraciət

***Bakıda keçiriləcək "Formula 1 Azərbaycan Qran Prisi 2025" ilə əlaqədar paytaxtın bir sıra küçə və prospektlərində nəqliyyat hərəkətinə artıq məhdudiyyətlər tətbiq olunub. Bununla yanaşı, ölkəmizə gələn beynəlxalq qonaqların sayının əhəmiyyətli dərəcədə artacağı proqnozlaşdırılır.***

Heydər Əliyev Beynəlxalq Aeroportundan "Unikal"a verilən məlumata görə, qeyd olunan səbəbdən, Heydər Əliyev Beynəlxalq Aeroportu sərnişinlərə müraciət edərək səyahətlərini öncədən planlaşdırmağı və hava limanına vaxtında, rahat şəkildə çatmaq üçün əlavə zaman ayırmağı tövsiyə edir.

Sərnişinlərin rahat və maneəsiz səfəri üçün aşağıdakı tövsiyələrə əməl etmələri məsləhət görülür:

- Hava limanına erkən gəlmək: Təhlükəsizlik və qeydiyyat prosedurlarını vaxtında tamamlamaq üçün uçuşdan ən azı 2 saat əvvəl aeroportda olun.
- Onlayn qeydiyyatdan keçmək: Gözləmə müddətini minimuma endirmək üçün uçuşdan əvvəl onlayn qeydiyyatdan keçin. Bəzi aviaşirkətlər uçuşdan 48 saat əvvəl qeydiyyat imkanı təqdim edir.
- Özünü qeydiyyat və baqaj təhvili köşkləri (self check in; baggage drop off) xidmətindən istifadə etmək: Bu xidmətlərdən yararlanmaqla siz qeydiyyat masalarında yaranan uzun növbələrdən yayınaraq prosesi daha sürətli başa vura bilərsiniz.
- Uçuş terminalı məlumatını öncədən yoxlamaq: Uçuşunuzun hansı terminaldan həyata keçiriləcəyini elektron bilet və ya aviaşirkətin rəsmi saytından dəqiqləşdirin.
- "Aeroexpress" xidmətindən istifadə etmək: "28 May" metro stansiyasından hava limanına rahat və tıxacdan kənar çatmaq üçün "Aeroexpress" ictimai nəqliyyatından yararlanın.
- Parklanma qaydalarına riayət etmək: Nəqliyyat vasitənizi yalnız rəsmi parklanma yerlərində saxlayın. Əks halda, keçidlərin bağlanmasına və digər avtomobillərin hərəkətinə mane olaraq süni tıxaclar yarada bilərsiniz. Qısa müddətli (3 dəqiqə) dayanma üçün xüsusi "drop-off" zonalarından istifadə edin.
- Parklanma ödənişlərini onlayn etmək: Vaxtınıza qənaət etmək üçün AzParking, ABB, Birbank mobil tətbiqləri və ya Tezödə platformasından istifadə edərək parklanma haqqını asanlıqla onlayn ödəyə bilərsiniz. İlk 15 dəqiqəlik parklanma üçün ödəniş tələb olunmur.
- Xüsusi qayğıya ehtiyacı olan sərnişinlər: Əlavə dəstəyə ehtiyacınız varsa, uçuşdan ən azı 48 saat əvvəl aviaşirkətə müraciət edin.

Qeyd edək ki, Heydər Əliyev Beynəlxalq Aeroportunun bütün xidmətləri Formula 1 dövründə gücləndirilmiş rejimdə fəaliyyət göstərəcək. Səyahətinizi öncədən planlaşdırmaqla siz rahat, təhlükəsiz və maneəsiz gediş-gəlişinizi təmin edə bilərsiniz.

# Sabiq nazirlərin müəmmalı gedişi

## Keçmiş oliqarxlar Azərbaycandakı mülklərini niyə satır?

***Azərbaycanda yüksək vəzifələrdə təmsil olunmuş şəxslərin son vaxtlar əmlaklarını satmaları, bizneslərini xarici ölkələrə köçürmələri barədə xəbərlər yayılır. Əslində bu proses əvvəllər də müşahidə olunub. Məsələn, sabiq nəqliyyat naziri Ziya Məmmədov və oğlu Anar Məmmədovun öz bizneslərini illər öncə ölkə kənarına çıxardıqları beynəlxalq medianın araşdırmalarından da məlumdur. Və ya sabiq keçmiş kənd təsərrüfatı naziri İsmət Abbasovun öz biznesini Böyük Britaniyaya köçürdüyü barədə çox yazılıb. Onun həmin ölkədəki biznesi də oğlu tərəfindən idarə edilir. Mərkəzi Bankın keçmiş sədri Elman Rüstəmovun da ölkədən kənarda milyonlarla dollarlıq əmlaklara sahib olduğu sirr deyil.***

Son günlər isə sabiq iqtisadi inkişaf naziri Heydər Babayevin və Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin daşınmaz əmlaklarını satışa çıxardığı, bununla da öz vəsaitlərini başqa ölkələrə yönləndirdiyi yönündə xəbərlər yayılıb. Hətta Mehdiyevin cəmi bir neçə gün ərzində iki villasını satışa çıxardığı aydınlaşıb. Əvvəlcə onun Bakıdakı Tbilisi prospektində olan dəbdəbəli villanı 8 milyon ABŞ dollarına satışa çıxarması barədə xəbər yayılıb. Həmin xəbərdə 36 sot ərazidə yerləşən bu villanın Mehdiyevə Prezident Administrasiyasının rəhbəri olduğu dövrdə himayə etdiyi yüksək vəzifəli şəxslərdən biri tərəfindən hədiyyə olunduğu bildirilirdi. Bu imarətin ardınca Administrasiyanın sabiq rəhbəri daha bir villasını satışa çıxarıb. "Gününsəsi.info"nun məlumatına görə, Şüvəlan bağları, Gülçülük sovxozu adlanan elit ərazidə inşa edilmiş, 1000 kvadratmetr sahəsi olan villa 1 milyon 300 min manata satışa çıxarılıb. Qeyd olunub ki, həmin villa 2018-ci ilə qədər Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmış Gülağa İslamov tərəfindən Mehdiyevə hədiyyə edilib. Məlumatda vurğulanıb ki, bahalı villa Mehdiyevin kürəkəni İlham Əliyevin adına sənədləşdirilib.

O da maraqlıdır ki, Mehdiyev Göyçayda keçmiş nəqliyyat naziri Ziya Məmmədov tərəfindən hədiyyə olunmuş mülkünü isə 2022-ci ildə satışa çıxarmışdı. Rayonun Hüngütlü kəndində, uca hasarlarla əhatə olunmuş villa 1.8 milyon manata təklif olunmuşdu.

Bəs sabiq oliqarxların ölkədəki əmlaklarını satışa çıxarıb, bizneslərini xaricə daşımaqda, ölkə kənarında məskunlaşmağa üstünlük verməkdə, övladlarını əcnəbi ölkələrdə yerləşdirməkdə marağı nədir? Onlar vasitəsilə Azərbaycandan qırağa nəhəng pul transferləri nədən xəbər verir?

Hazırda bu suallar ətrafında ciddi müzakirələr gedir. Məsələn, "Globalinfo"ya danışan siyasi şərhçi Heydər Oğuz deyib ki, məmurların böyük əmlaka sahib olması ölkənin maraqları üçün təhlükədir. O, əlavə edib ki, maaşına rəğmən kifayət qədər mülkiyyətə sahib olan məmurların əmlakları dərhal müsadirə olunmalı, lazım gələrsə, onlar hərraca çıxarılıb satılmalı və bu vəsaitlərin saxlanıldığı fondlar yaradılmalıdır". Ekspertin fikrincə, həmin vəsaitlərin ölkənin mənafeyi üçün müəyyən proqramlara yönəldilməsi vacibdir. Digər tərəfdən, korrupsioner məmurlar müxtəlif dövlət qurumlarına yerləşdirilmiş, sapı özümüzdən olan xarici emissarlardır. Sitat: "Onların əsas məqsədlərindən biri sərvətlərimizi talayaraq xidmət etdikləri dövlətlərə ötürmək, onların iqtisadiyyatını gücləndirmək və bunun müqabilində Azərbaycanı zəiflətməyə çalışmaqdır". Ekspert deyib ki, belə məmurlar vaxtında ifşa edilməli və cəzalandırılmalıdır.

Mediada muğam ustadı Alim Qasımovun villasının satışa çıxarılması ilə bağlı müzakirələrə etiraz edən hüquqşünas Aslan İsmayılov isə deyib: "Ölkədə büdcə pulunu talayan, tutduğu vəzifələrdə rüşvətlə yüz milyonlar toplayanlar olub və vardır. Onların tək özlərinin yox, həm də balalarının 5 milyonluq yox, 50 milyonluq villaları, təyyarələri, obyektləri var. Bu barədə də yazırlar, ancaq onların heç biri gündəm olmur. Bu gün olanları demirəm, heç vəzifələrindən azad olanların əmlakları barədə də xəbərlər olur, ancaq onlar da gündəm olmur. Çox demirəm elə Ramiz Mehdiyev, Əli Həsənov, Ziya Məmmədovun özləri və yaxın ətrafı son zamanlar 100 milyonluq əmlaklar satıblar. Onların hansı gündəm olub?!"

Bəzi ekspertlər isə hesab edir ki, son illərdə Azərbaycanda korrupsiya ilə mübarizənin yeni və daha



kəskin mərhələsi başlayıb. Bu mərhələdə nəinki hazırda vəzifə sahibi olan, keçmişdə yüksək vəzifə tutan şəxslər də hüquqi araşdırmanın leqal hədəfinə çevriliblər. "Səlim Müslümovu xatırlayın. O, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri ikən ağlasığmaz dərəcədə varlanmışdı. Sonra postunu itirdi. Təkcə Müslümov yox, çoxları belə hesab edirdi ki, artıq ona toxunan olmayacaq, illərdir korrupsiya yolu ilə yığdıqlarını xımır-xımır yeyəcək. Lakin bu baş vermədi. O, nazir postunu itirdikdən xeyli sonra cinayət məsuliyyətinə cəlb edildi, həbs olundu, yalnız dövlətə vurduğu maddi ziyan ödənildikdən sonra ev dustaqlığına buraxıldı" - "Unikal"ın əməkdaşı ilə söhbətində adının çəkilməsini istəməyən ekspert bildirib.

O, başqa bir nümunə kimi Yevlax rayonunun sabiq icra başçısı Qoca Səmədovu göstərib. Səmədov da vəzifəsindən uzaqlaşdırılandan xeyli sonra ortaya çıxan korrupsiya faktları səbəbindən cinayət məsuliyyətinə cəlb olunmuş, həbs edilmiş, haqqında 5 il 9 ay azadlıqdan məhrum etmə cəzası təyin olunmuş, yalnız səhhətindəki ciddi problemlər səbəbindən şərti azadlığa buraxılmışdı.

Bu və bənzər nümunələrdən göründüyü kimi, artıq hansısa iri məmurun vəzifədən kənarlaşdırılması onun hüquqi məsuliyyətdən də kənarda qalması anlamına gəlmir. Korrupsiyaya qarşı geniş miqyaslı mübarizə nə vaxtsa yüksək post tutub dövlət vəsaitlərini talama, ya da vəzifə səlahiyyətlərindən sui-istifadə etmə yolu ilə varlanan eks-məmurların da bir gün ədalət mühakiməsi qarşısında dayanmasını qaçılmaz edir. Görünür, əmlaklarını sataraq pullarını, ya da şəxsi bizneslərini son vaxtlar daha da sürətli şəkildə ölkədən çıxarmağa başlayan oliqarxların əsas qorxusu da elə bundadır...

***Toğrul Əliyev***

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:18 PM Page 10



# Vüqar Qurbanovdan növbəti kütləvi şikayət

## Respublika Endokrinoloji Mərkəzdə "sular" nə vaxt durulacaq? - Yüzlərlə xəstə uşağa qarşı böyük haqsızlıq!

***Respublika Endikronoloji Mərkəz tərəfindən I tip şəkər xəstəsi olan uşaqlara verilən sensor əsaslı qlükoza monitorinq sistemi "Sibionics" cihazının verilməsi ilə bağlı yenidən narazılıqlar ortaya çıxıb. Bu barədə "Unikal"a valideynlər məlumat veriblər.***

Onların sözlərinə görə, öncə mart ayında həmin cihazların verilməsi tamamilə dayandırılıb, kütləvi narazılıqlardan sonra proses bərpa edilib, lakin bu günlərdə yenidən anormal vəziyyət yaranıb: əvvəllər ayda iki dəfə verilən cihaz bir dəfə verilməyə başlanıb, çox keçmədən isə valideynlərə deyilib ki, yalnız 3-15 yaş arası I tip şəkər xəstəsi olan uşaqlara "Sibionics" cihazı, özü də ayda 1 dəfə veriləcək. Halbuki həmin cihazdan istifadə müddəti 15 gündür.

Qeyd edək ki, əvvəllər sözügedən cihaz 1-18 yaşlı I tip şəkər xəstəsi olan bütün uşaqlara verilirdi.



Valideynlərin sözlərinə görə, sözügedən cihaz I tip şəkər xəstəliyindən əziyyət çəkən azyaşlıların və şagirdlərin sağlamlığı baxımından həyati əhəmiyyətlidir. Onlar qısa vaxtda "Sibionics" cihazlarının bütün uşaqlara, üstəlik, ayda 2 dəfə verilməsinin bərpa olunacağına ümid bəsləyirlər.

Xatırladaq ki, bu ilin martında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Respublika Endokrinoloji Mərkəzdə yoxlamalara başladığı, müvafiq şikayət əsasında artıq Mərkəzin rəhbərliyi və bir neçə həkim endokrinoloq barəsində araşdırmalar aparıldığı bildirilib. Həmin vaxt qeyd olunub ki, yoxlamalara cəlb olunanlar arasında Mərkəzin direktoru Nərmin İsmayılova, inzibati işlər üzrə direktor müavini Vəfa Kərimova, baş həkim Ülviyə Əhmədova və digər şəxslər var.

Nərmin İsmayılova yerli mediaya açıqlamasında əməliyyatın inzibati işlər üzrə direktor müavini vəzifəsində çalışmış Vəfa Kərimovadan edilən şikayət əsasında keçirildiyini, əməliyyat nəticəsində saxlanılan olmadığını, barəsində səslənən ittihamların yalan olduğunu açıqlamışdı. Bildirmişdi ki, əməliyyatdan sonra özü və baş həkim Ülviyyə Əhmədova işdən öz ərizələri ilə çıxıblar.

İlkin məlumatlara görə, istintaqa cəlb edilən rəhbər vəzifəli şəxslər Mərkəzdə ciddi qanun pozuntularına yol veriblər. Belə ki, xəstələrdən kütləvi şəkildə rüşvət tələb etmə, xəstə qəbulu prosesində nöqsanlar, qanunsuz reseptlərin yazılması, insulin və digər diabetik dərman preparatlarının pul müqabilində satılması kimi neqativ hallar müəyyən edilib. Hətta Mərkəzin həkimləri sağlam şəxslərə ağır diabet diaqnozu qoyaraq onlara arayışları yüksək məbləğ müqabilində satıblar. Toplanmış ilkin sübutlar əsasında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)) maddələri ilə cinayət işi başlanıb.

Bundan qısa müddət sonra Respublika Endokrinoloji Mərkəzin direktoru Nərmin İsmayılovanın vəzifəsindən azad edilməsi rəsmiləşib. Bununla bağlı TƏBİB-in İdarə Heyətinin sədri Vüqar Qurbanov əmr imzalayıb. Vüqar Qurbanovun digər əmri ilə sözügedən vəzifəyə Kəmalə Ağayeva gətirilib.

"Unikal"ın əldə etdiyi məlumata görə, bu təyinatadək K.Ağayeva TƏBİB-in stasionar tibbi xidmətin təşkili şöbəsinin müdiri olub.

Respublika Endokrinoloji Mərkəzinin yeni direktoru ilə bağlı gözləntilər böyük idi - valideynlər ümid edirdilər ki, bu qurumda qaranlıq işlərə nəhayət son qoyulacaq, onlarda ciddi və kütləvi narazılıq yaradan məsələlər həllini tapacaq. "Lakin biz tamamən fərqli vəziyyətlə üzləşmişik. Respublika Endokronoloji Mərkəzin keçmiş rəhbərliyi müəyyən qanunsuz əməllərə qol qoyublarsa, bunun əziyyətini niyə biz və xəstə övladlarımız çəkməlidir? Ölkə rəhbərliyi uşaqların sağlamlığının qorunması istiqamətində əhəmiyyətli addımlar atır, sosial dövlət anlayışından çıxış edir, lakin bəzi vəzifəli şəxslər bu humanist siyasətə kölgə salmağa çalışırlar" deyən valideynlər TƏBİB rəhbərliyindən səsləndirdikləri problemin həlli istiqamətində tezliklə konkret addımlar atılmasını istəyirlər.

Onu da deyək ki, "Sibionics" cihazları diabet xəstələri üçün müasir texnologiyaya əsaslanan həllər təqdim edir. Bu cihazlar diabetin idarə olunmasını asanlaşdırmaq və xəstələrin gündəlik həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədi daşıyır.

"Sibionics" - davamlı qlükoza monitorinqi (CGM) sistemləri diabet xəstələrinə qan şəkər səviyyəsini mütəmadi izləməyə imkan verir. Bu sistemlər aşağıdakı üstünlükləri ilə seçilir:

Ağrısız və rahat istifadə - Cihaz dərialtı sensorlar vasitəsilə qan şəkərini davamlı olaraq ölçür, iynə ilə test etməyə ehtiyac qalmır.

Real vaxt rejimində məlumatlar - xəstələr və həkimlər istənilən vaxt smartfon və ya digər ağıllı cihazlar vasitəsilə qan şəkəri səviyyəsini izləyə bilirlər.

Həyəcan siqnalları və xəbərdarlıqlar - qlükoza səviyyəsi çox aşağı və ya yüksək olduqda, cihaz avtomatik siqnal verir.

Geniş analiz və hesabatlar - Xəstələr uzunmüddətli qlükoza göstəricilərini analiz edərək diabeti daha yaxşı şəkildə nəzarət altında saxlaya bilirlər.

Sözügedən cihazların hazırkı qiyməti təxminən 120 manat ətrafındadır və iki həftə boyunca aktivdir. Bir sözlə, hər hansı diabet xəstəsi ay ərzində həmin cihazdan istifadə üçün 250 manata yaxın vəsait tələb olunur. Nəzərə alaq ki, Azərbaycan reallığında həmin məbləğ vətəndaşların cibinə uyğun deyil. Elə ona görə də dövlət 18 yaşınadək olan I tip şəkər xəstələrinin bu cihazlarla təminatını öz üzərinə götürüb.

Lakin belə görünür, bəzi səlahiyyət sahiblərinin hansısa gizli və şəxsi maraqları dövlətin bu humanist siyasətinə uyğun davranmağa mane olur. Mövzunu diqqətdə saxlayacağıq.

***Toğrul Əliyev***



## Dövlət Komitəsi yanında İctimai Şuraya seçkilər keçirilib

***"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli Qanununa, bu Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq 17 sentyabr 2025-ci il tarixində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın yeni tərkibinin müəyyən olunması üçün seçki keçirilib.***

Bu barədə "Unikal"a Komitədən məlumat verilib. Dövlət Komitəsi sədrinin 15 aprel 2025-ci il tarixli əmri əsasında seçki komissiyası yaradılıb. Dövlət Komitəsi nümayəndələrindən 4 üzv, vətəndaş cəmiyyəti institutlarından 5 üzv olmaqla 9 nəfərdən ibarət Seçki komissiyası seçkiləri təşkil edib.

16 namizədin sənədləri rəsmi qeydiyyata alınıb. Seçki prosesinin sonunda səslər komissiya üzvləri tərəfindən hesablanıb. Seçkilərin şəffaflığını təmin etmək məqsədi ilə şəffaf seçki qutuları qoyulub. Seçkilərin nəticəsinə əsasən, aşağıdakı şəxslər İctimai Şuranın yeni üzvləri seçiliblər:

1."Sağlam İnkişaf və Maarifləndirmə" İctimai Birliyinin sədri - Anar Xəlilov

2."Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri - Hafiz Səfixanov

3.Qərbi Azərbaycan İcmasının təşəbbüs qrupundan namizəd - Rufik İsmayılov

4.Qarabağ müharibəsi veteranlarının təşəbbüs qrupundan namizəd - Babək Aslanov

5.Cəbrayıl rayonu Qarabağ müharibəsi veteranlarının təşəbbüs qrupundan namizəd - Səbuhi Hüseynov

6.Xankəndi şəhəri məcburi köçkünlərin təşəbbüs qrupu tərəfindən namizəd, hüquqşünas - Səbuhi Səmədov

7."Türküstan" Media Qrupunun rəhbəri - Aqil Camal

8.Odlar Yurdu İctimai Birliyinin sədri - Həcər Əkbərova

9.Ağdərə rayonundan məcburi köçkünlərin təşəbbüs qrupunun namizədi, Azərbaycan Dillər Universitetinin müəllimi - Qorxmaz Mustafayev

10.Regional Gender Mərkəzi İctimai Birliyinin sədri - Şərqiyyə Dadaşova

11."Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi - Fəridə Cabbarova

## Türkiyə MN Azərbaycanı təbrik etdi

***Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycanı 20 Sentyabr - Suverenlik Günü münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, bu barədə nazirliyin "X" hesabında məlumat verilib.

"Türkiyə Silahlı Qüvvələri beynəlxalq və ikitərəfli münasibətlər çərçivəsində öhdəsinə götürdüyü məsuliyyətlərlə regional və qlobal təhlükəsizlik və sabitliyə önəmli töhfələr verməyə davam edir.

Azərbaycan türkü qardaşlarımızın 20 Sentyabr - Suverenlik Gününü indidən qeyd edir, "bir millət, iki dövlət" anlayışı ilə bir və bərabər olmağa davam edəcəyimizi növbəti dəfə vurğulayırıq",- Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat katibi Zeki Aktürk qeyd edib.

35_27 IYUI-QARA.qxd 9/18/2025 9:18 PM Page 11





## Buraxılış imtahanında yeni növ suallar olacaq - Detallar açıqlandı

***2027-ci ildə tam orta təhsil səviyyəsi üzrə keçiriləcək buraxılış imtahanında xarici dil fənləri üzrə yeni növ tapşırıq modelindən istifadə ediləcək.***

Bu barədə Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə "Xalq qəzeti"nə müsahibəsində bildirib.

O qeyd edib ki, həmin tapşırıq modelindən bu il IX sinif buraxılış imtahanlarında ilk dəfə istifadə olunub.

"Unikal"ın məlumatına görə, sözügedən tapşırıq modelinin detalları açıqlanıb.

DİM-dən bildirilib ki, söhbət imtahanın ümumi modelinin dəyişməsindən deyil, yalnız xarici dil üzrə yazı bacarıqlarının yoxlanılması üçün yeni növ tapşırıq tipindən gedir. Belə ki, şagirdlərə üç şəkil təqdim olunur və şəkil əsasında kiçik həcmli hekayə qurmaq tələb olunurdu. Bu, yazı bacarıqlarını ölçməyə yönəlmiş funksional tapşırıqdır.

Xarici dil fənlərinə aid yeni növ test tapşırığı 2025-ci ildə IX sinif buraxılış imtahanların tərkib hissəsi kimi tətbiq olunub. 2027-ci ildən isə "Yazı" məzmun xətti üzrə bilik və bacarıqların qiymətləndirilməsi bu və digər tapşırıq növləri əsasında XI sinif buraxılış imtahanlarında da həyata keçiriləcək.

Qurumdan əlavə edilib ki, IX sinif eləcə də, digər imtahanlarının nəticələrinin təhlili il ərzində həyata keçiriləcək və ənənəyə uyğun olaraq ümumi nəticələrin növbəti il "Abituriyent"12 jurnalında ictimaiyyətə təqdim olunması gözlənilir.

Qeyd edilib ki, yeni tapşırığın əsas məqsədi şagirdlərin vizual informasiyanı yazılı formada ifadə etmək bacarığını qiymətləndirməkdir. Bu üsul beynəlxalq qiymətləndirmə sistemlərində də geniş tətbiq olunur. (Mənbə: Azərbaycan müəllimi)

## Yevlaxda yeraltı piyada keçidinin tikintisi nə yerdədir?

***Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Yevlax şəhərindən keçən hissəsində yeraltı piyada keçidinin tikintisi yekunlaşmaq üzrədir.***

Bu barədə "Unikal"a AAYDA-dan məlumat verilib. Bildirilir ki, keçidin eni 5 metr, hündürlüyü 3,2 metr, ümumi uzunluğu isə 47 metr təşkil edir.Bu uzunluğun 37 metri qapalı şəkildə layihələndirilib. Tikinti işləri "İnşaat Norma və Qaydaları"na uyğun olaraq, əvvəlcədən təsdiq olunmuş iş qrafikinə əsasən aparılır. Layihənin vaxtında və keyfiyyətlə başa çatdırılması məqsədilə əraziyə kifayət qədər texnika və canlı qüvvə cəlb edilib. Yeraltı piyada keçidinin inşası, vətəndaşların magistral avtomobil yolunu daha rahat və təhlükəsiz şəkildə keçməsini təmin edəcək.

# Sabiq komitə sədrinin adı ətrafında yeni qalmaqal

## Hidayət Orucovun bir ay əvvəl kollec direktoru vəzifəsindən çıxarılan qızına cinayət işi açılıb? - İlginc iddialar!

***Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İqtisadiyyat və Humanitar Kollecin keçmiş direktoru Səhər Orucovanın rəhbərliyi dövründə ciddi qanun pozuntularına yol verildiyi iddia edilir.***

"Unikal" xəbər verir ki, bu barədə "Teleqraf"a kollecdə çalışan bir qrup müəllim məlumat verib.

İddialara görə, Səhər Orucova təhsil ocağının imkanlarından ancaq öz maraqları üçün istifadə edib. Bildirilib ki, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi kollecdə yoxlamalar aparıb, pozuntuları aşkara çıxarıb.

Məsələ ilə bağlı Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (EATDA) yoxlamaların aparıldığını təsdiqləyib, bunun Elm və Təhsil Nazirliyi (ETN) ilə birgə həyata keçirildiyi vurğulanıb. "Yoxlamalar nəticəsində S.Orucovanın əmək fəaliyyəti dövründə vəzifə səlahiyyətlərindən sui-istifadə və küllü miqdarda mənimsəmə halları müəyyən edilib. Aparılmış araşdırma materialları əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 179.3.2-ci (külli miqdarda özgə əmlakını mənimsəmə və israf etmə) maddələri üzrə cinayət işi başlanılıb", - məlumatda vurğulanıb.

Qeyd edilib ki, bununla əlaqədar EATDA-nın 30 iyun 2025-ci il tarixli müvafiq əmri ilə Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecinin direktoru Səhər Orucova ilə bağlanmış əmək müqaviləsinə müddətin bitməsi səbəbindən xitam verilib.

Səhər Orucova açıqlamasında barəsində səslənən iddialarla bağlı məlumatsız olduğunu deyib: "İlk dəfədir, haqqımda belə fikirlər eşidirəm. Bunlar səhv məlumatlardır. Cinayət işi ilə bağlı da xəbərsizəm, bunu da ilk dəfə eşidirəm", - sabiq direktor bildirib.

Məsələ ilə əlaqədar Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Preventiv tədbirlər və təhqiqat idarəsinə də sorğu ünvanlanıb.

"Unikal"ın əldə etdiyi məlumata görə isə EATDA-nın ETN-lə birgə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İqtisadiyyat və Humanitar Kollecində apardığı yoxlama zamanı bir neçə yüz min manatlıq maliyyə pozuntusu aşkarlanıb. Hətta ən azı yarım milyon manatlıq vəsaitin taleyi ilə bağlı ciddi şübhələrin ortaya çıxdığı deyilir. Kollec müəllimlərinin də yoxlama zamanı EATDA və ETN nümayəndələrinə sabiq direktoru çətin vəziyyətdə qoyacaq bilgilər verdiyinə dair də iddialar dolaşır.

Qeyd edək ki, Səhər Orucova Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri, həmçinin Azərbaycanın Qırğız Respublikasındakı keçmiş fövqəladə və səlahiyyətli səfiri Hidayət Orucovun qızıdır.

Xatırladaq ki, sabiq komitə səfiri və keçmiş səfirin adı sonuncu dəfə ötən ilin martında sələfi Rafiq Əliyevlə yaşadığı qalmaqalla gündəmə gəlmişdi. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birinci sədri olmuş R.Əliyev xələfi Hidayət Orucov haqda tənqidi fikirlər səsləndirmişdi. O, "bakupost.az"-a açıqlamasında belə demişdi: "Dini bilən adam Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə sədr olmalıdır. Bu vəzifədə birinci 5 il mən işlədim. Mən dini də, ərəb dilini də bilirdim. Təxminən 5 il ərzində dövlət konsepsiyası hazırladıq və müəyyən işlər gördük. Daha sonra həmin vəzifəyə Hidayət Orucov təyin olundu. O, nə dini, nə də siyasəti bilirdi. Hidayət Orucov 9 il bu vəzifədə işlədi, lakin bu müddət ərzində onun gördüyü hər hansı işi qeyd edə bilmirəm. Çünki ədəbiyyatşünas idi və ancaq yazı-pozu ilə məşğul olurdu".

Rafiq Əliyevin bu fikirlərinə Hidayət Orucov "Yeni Müsavat"-da cavab verib və Orucov sələfi ilə bağlı ağır ittihamlar səsləndirmişdi: "Əvvəllər də bir-iki dəfə mətbuatda nə isə dedi - mənim Dövlət Komitəsindən təzə gedən vaxtlarımda - əhəmiyyət vermədim. Heç indi də əhəmiyyət verməzdim. Amma indi elə yalanlar, uydurmalar, şər, böhtan deyib, elə qeyri-ciddi, nə keçmiş sədrə, nə professora yaraşan ifadələr işlədib ki... Bu məni çox təəccübləndirdi. Onu da deyim ki, Dövlət Komitəsinə sədr gedəndə də təəccüblənmişdim. İnanmazdım, hətta təsəvvür eləməzdim ki, Azərbaycanda elə antidövlət komitəsi var. Məndən 5 il qabaq o komitə ulu öndərin sərəncamı ilə yaradılmışdı. Getdim, orada Dövlət Komitəsinin fəaliyyəti, statusu, görəcəyi işlərlə bağlı heç nə görmədim. Bir daha təkrarlayıram, mən inanmazdım, həm də təsəvvür eləməzdim ki, Azərbaycanda elə antidövlət komitəsi var". Orucov əlavə etmişdi ki, o zaman Azərbaycanda situasiya çox mürəkkəb idi, çox ciddi problemlər var idi: "Yəni xarici missionerlərin ölkəmizə axını, onların təmsil olunduqları ölkələrdəki dövlət-din münasibətlərini burada təbliğ etmələri, İslam dəyərlərini özlərinə məxsus şəkildə yaymağa cəhd eləməsi, Azərbaycan üçün ənənəvi olmayan və Azərbaycan xalqının heç vaxt qəbul etmədiyi radikal təriqətlərin, mövhumatın burada yayılması və ilaxır. Bu məsələlərlə bağlı demək olar ki, heç bir iş görülmürdü. Əksinə, müəyyən adamlar da bu istiqamətdə heç narahat deyildilər. Hətta xarici missionerlərə şərait yaradanlar da istisna olunmurdu. Ona görə deyirəm ki, dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı heç bir iş görülmürdü. Adama belə gəlirdi ki, bu, elə antidövlət komitəsidir. Mən buna çox təəssüfləndim".O deyib ki, R. Əliyevin özü ilə heç bu barədə danışmaq istəməyib: "Onunla bu haqda danışmağın heç bir mənası yox idi, çünki o artıq işdən çıxarılmışdı. Lap dözülməzi o idi ki, bu, ümumiyyətlə, Dövlət Komitəsinin işi ilə məşğul olmurmuş. Mən orada fəaliyyətə başlayandan sonra əməkdaşlar dedilər ki, o, saat 11-12-də işə gəlirmiş, günorta 1-də, uzaqbaşı 2-də çıxıb gedirmiş və ondan sonra qayıtmırmış. Dövlət Komitəsini idarə edən maliyyə şöbəsinin müdiri onun yeznəsi imiş. Onun siyasətlə, dinlə heç bir əlaqəsi olmayıb, ticarətdə - "Azərittifaq"ın Ağdamdakı qurumunda işləyib. Əvvəla, yaxın qohumu ora işə götürmək olmaz, bu, öz yerində. Digər tərəfdən, "Azərittifaq"ın keçmiş işçisi siyasi bir qurumda, Dövlət Komitəsində, günün yarısından çoxunu sədrin yerinə necə işləyə bilər? O vaxt məlum oldu ki, bu adam 5 il komitə sədri işlədiyi dövrdə onun əsas diqqəti özünün maddi biznes maraqlarına yönəlib. Məsələn, "İrşad" hoteli tikdi, telefon şirkəti yaratdı və ilaxır".



Sonda onu da deyək ki, R.Əliyev adı çəkilən komitəyə 2001-2006-cı illərdə, H. Orucov isə 2006-2012-ci illərdə sədrlik edib.

***Sənan Mirzə***

35_27 IYUI-QARA.qxd 9/18/2025 9:18 PM Page 12



## 6.3.14. Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Rusiyadan Azərbaycan diasporuna qarşı kampaniya

## İsmayıl Ağayev: “Həmyerlilərimizə basqı etməklə Azərbaycanın xarici siyasətdə Rusiya amilini nəzərə almasına çalışır”

***Dünyada xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri azərbaycanlılardan da yan keçməyib. Hazırda dünyanın müxtəlif ölkələrində soydaşlarımız yaşayır. Onlar dünyanın müxtəlif ölkələrində yaşamaqlarına baxmayaraq Azərbaycanın milli və mənəvi dəyərlərini qoruyub saxlayır, dövlətçilik mənafeyini öz şəxsi maraqlarından üstün tuturlar. Dünya azərbaycanlılarının həmrəyliyi isə onların yaşadıqları ölkədə daha güclü olmasına imkanlar yaradır. Sürətli inteqrasiya prosesləri diaspor və lobbi təşkilatlarının rolunu da zəruri edir. Odur ki, xaricdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsi xarici siyasətdə prioritet istiqamətlərdən biridir. Artıq dünya azərbaycanlılarının bir amal ətrafında birləşməsi və diaspor quruculuğu sahəsində mühüm işlər görülüb. Azərbaycanlıların sıx yaşadığı ölkələrdə diaspor təşkilatları fəaliyyət göstərir.***



Amma son vaxtlar bəzi ölkələrdə azərbaycanlılara, xaricdəki soydaşlarımızı bir amal ətrafında sıx birləşdirən diaspor təşkilatlarına qarşı sanki bir kampaniya aparılır. Şimal qonşumuzda bəzi diaspor təşkilatlarının rəhbərləri həbs olunur, soydaşlarımıza qarşı sanki qara kampaniya başladılıb.

Bu zaman ortaya çıxan suallardan biri də, sözügedən ölkədə diaspor fəaliyyətinin gücləndirilməsi, soydaşlarımızın hüquqlarının necə qorunmasıdır.

Beynəlxalq Diaspor Mərkəzinin rəhbəri İsmayıl Ağayev “Unikal” qəzetinə müsahibəsində bildirib ki, hazırda Rusiyada yaşayan azərbaycanlıların həmrəyliyi çox vacibdir.

“Rusiyada bizim çoxsaylı soydaşlarımız yaşayır. Bu ölkədə diaspor təşkilatları da fəaliyyət göstərir. Amma son bir neçə aydır ki, biz Rusiyada həm diaspor rəhbərlərinə, həmçinin də sadə azərbaycanlılara qarşı bir kampaniyanın başladıldığının şahidi oluruq. Bu əlbəttə ki, xoşagələn hal deyil. Orada yaşayan azərbaycanlıların çoxu Rusiya vətəndaşlığını alıb. Sadəcə milliyyətcə azərbaycanlı olduqları üçün, müxtəlif təyziqlərlə üzləşirlər. Biz bunun səbəbini bilirik. Bu Rusiyanın siyasi təyziq alətlərindən biridir. Azərbaycanın müstəqil xarici siyasət aparması Rusiyanın xoşuna gəlmir. Odur ki, Rusiyada yaşayan həmyerlilərimizə təyziq etməklə Azərbaycanın xarici siyasətdə Rusiya amilini nəzərə alması üçün bu cür vasitələrdən istifadə edir. Amma Rusiya da anlamalıdır ki, Azərbaycan müstəqil dövlətdir və əvvəlkindən çox güclüdür. Buna görə xarici siyasətini müstəqil yürütmək haqqı var. Bu cür təyziq vasitələri ilə Azərbaycana təsir etmək, xarici siyasətini dəyişdirmək cəhdləri nəticə verməyəcək. Bütün bunlarla yanaşı, hazırkı durumda Rusiyada yaşayan azərbaycanlıların daha çox həmrəy olmasına, təşkilatlanmasına ehtiyac var. Bizim Diaspor Komitəsi də həmin ölkədə yaşayan azərbaycanlıların problemləri ilə maraqlanmalı, qarşılaşdıqları çətinlikləri dəf etmələrinə yardım etməlidir”,- deyə İsmayıl Ağayev bildirib.

Müsahibimiz deyir ki, belə bir situasiyada xaricdə yaşayan soydaşlarımız bir yumruq kimi birləşməlidirlər. Diaspor Komitəsi onların qarşılaşdıqları çətinliklər barədə Rusiya rəsmi qurumlarına məktublar göndərməli, onların hüquqlarının müdafiəsinə dəstək olmalıdır:” Xaricdə diasporun gücü həm də QHT- lərlə əməkdaşlıq, KİVə çıxış imkanının olması ilə ölçülür. Çox yaxşı olardı ki, QHT rəhbərləri, vətəndaş cəmiyyəti institutu üzvüləri azərbaycanlıların bu ölkədə üzləşdiyi çətinlikləri qabarda, KİV- də ictimailəşdirələr. Çox təəssüf ki, bizim Rusiyada televiziya kanalımız, səsimizi çatdırmağa tribunalarımız deməк olar ki, yoxdur. Odur ki, biz gücü həmrəyliyə, təşkilatlanmaya verməliyik. Diaspor təşkilatlarının fəaliyyəti daha da güclənməlidir”.

Onun sözlərinə görə, siyasi proseslər səngiyənə qədər Azərbaycan xalqının birliyi, vəhdəti sayəsində bu cür kampaniyalara qarşı birlik nümayiş etdirilməlidir.

Qeyd edək ki, Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinski bu ilin avqustunda həbs olunub. Bundan başqa, Şahin Şıxlinskinin oğlu Mutvalı Şıxlinski də hazırda həbsdədir. O, hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zorakılıq tətbiq etməkdə təqsirləndirilir.

Azərbaycanın diaspor rəhbərlərinin həbsə atılmasından sonra son vaxtlar Rusiyada Azərbaycan diaspor təşkilatlarının strukturunda mühüm dəyişikliklər baş verir. Yekaterinburqda Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinskinin yerinə yeni rəhbər seçilib.

Yayılmış məlumatlara görə, Vidadi Mustafayev Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri təyin olunub.

Diasporla İş üzrə Dövlət Komitəsinə yaxın mənbələrin məlumatına görə, Vidadi Mustafayev adlı şəxsin Azərbaycan diasporuna heç bir aidiyyəti yoxdur.

O, naməlum qrup tərəfindən qeyri-müəyyən bir təşkilata “rəhbər” vəzifəyə “seçilib”.

Məlum olduğu kimi, diaspor könüllü fəaliyyət növüdür. Ana Vətənlə yaşadığı ölkə arasında əlaqələrin inkişafına töhfə verməк, həmin ölkələrin qanunvericiliyinə uyğun fəaliyyət göstərmək diasporun əsas funksiyalarına daxildir.

Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinskinin sədrlik etdiyi “Azərbaycan-Ural” milli-mədəni ictimai təşkilatı da hər zaman Rusiya qanunvericiliyinə uyğun şəkildə fəaliyyət göstərib.

Rusiyada diasporumuza qarşı kampaniya həbslərlə bitmir.

Bununla yanaşı, artıq Rusiyada “Azərbaycan diasporu” ifadəsi ləğv edilərək, onun əvəzinə “Azərbaycan icması” anlayışı tətbiq olunur. Bütün bunlar isə Rusiyadakı Azərbaycan diasporunun fəaliyyətinə bir basqı kimi şərh olunur.

İsmayıl Ağayev də bildirir ki, Rusiyanın Azərbaycan diasporuna qarşı bu cür kampaniyaları əslində köhnə imperiya siyasətinin davamıdır.

Həmsöhbətimiz deyir ki, diaspor sosial dayaqlar yaradan, milli kimliyi qoruyan bir qurumdur. Rusiyada diasporumuza qarşı aparılan kampaniya da siyasi oyundur. Onun sözlərinə görə, Rusiyada azərbaycanlı sahibkarların, diaspor fəallarının və ictimai fiqurların həbsi siyasi təzyiq aktıdır.

İ. Ağayev bildirir ki, Azərbaycanlı sahibkarlar və diaspor təşkilatlarının nümayəndələri uzun illər Rusiya cəmiyyətində dinc şəkildə fəaliyyət göstərib. Hətta onların çoxu Rusiya dövləti tərəfindən orden və medallarla təltif olunublar.

Odur ki, İ. Ağayev Azərbaycanın bu məsələyə biganə qalmamalı olduğunu, Diaspor Komitəsinin tədbirlər görməli olduğunu söyləyir. Bildirir ki, hazırda Rusiyada yaşayan soydaşlarımızın dəstəyə daha çox ehtiyacları var: “Rusiya anlamalıdır ki, iki dövlət arasında dostluq münasibətləri birtərəfli təzyiq və təqib əsasında davam edə bilməz. Heç bir dövlət Azərbaycanla təhdid və təzyiq dilində danışa bilməz. Rusiya da bunu anlamalı və öz siyasətini buna uyğun qurmalıdır. Çünki, Azərbaycan müstəqil xarici siyasət aparmaqda azaddır. Suveren dövlət kimi buna hüququ var”.

*Gülayə Mecid*



## Ölüm nədir?

***Ürəyinin bir gün doyünməyini buraxması və nəfəsinin bir gün o gözəl havanı ciyərlərinə çəkməyini dayandırması...***

Sizdən yenə soruşuram,ölüm nədir?

Bu qədər mi bəsitdir?

Dünyanı dəyişəcəyini,iz qoyacağını düşünən o ruhlar üçün ölüm unudulmağın acı faciəsidir...

Mənim üçünsə ölüm,yoxluğundan sonra insanın içində ölməyən xatirələrdir...

Bir gün onsuz otağa girəndə içimə yerləşən ağır kədər duyğusudur mənim üçün ölüm.Yatağının üstündə oturub,hər bir əşyasını diqqətlə nəzərdən keçirəndə içimə hücum edən peşmanlıq hissidir ölüm.Şəkillərimizə,bir zamanlar həyat dolu gülümsəyişinə baxanda həyatı günahlandırdığım bir sonluqdur ölüm.Barmaqlarım şəkillərinin üzərində gəzəndə,istəmsizcə boğazıma dolan qəhərdir ölüm.Onun hər qəlbini qıranda,bir çiçəktək zərif ruhunu incidəndə,özümdən daha çox nifrət edişimdir ölüm.Kaş daha çox zaman keçirtsəydim,onu daha çox güldürsəydim, ’sevgimi daha yaxşı ifadə etsəydim’ dediyim o qəlb yarasıdır ölüm...

Ən çox da,gedişindən sonra qəlbimin tam ortasına buraxdığı boşluqdur ölüm.Gerçək ölüm,bir insanı içində öldürə bilməməməkdir.Yolda fikirli fikirli gedərkən,təsadüfən radioda səslənən o musiqinizin dodaqlarında buraxdığı buruq təbəssümdür ölüm...

Bir vaxtlar birlikdə keçdiyiniz küçələrdən,tək-tənha keçişindir ölüm...

Bir zamanlar sevdiyiniz rəngarəng güllərə küsüşündür ölüm...

Onu unutmaq üçün saç tellərini qəddarca kəsişindir ölüm.Onu hələ içində yaşatmağındır ölüm.Budur ölüm mənə görə...Sadəcə nəfəsin kəsilməsi,ruhun əbədi sonsuzluğa qovuşmağı deyil,onunla birlikdə bu dünyadan köçməkdir ölüm...

*Ofeliya Qafarova*

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

35_27 IYUI-QARA.qxd 9/18/2025 9:18 PM Page 13



# Aeroportda yeni taksi qiymətləri

***Heydər Əliyev Beynəlxalq Aeroportunda taksi xidmətlərinin təkmilləşdirilməsi çərçivəsində yeni taksi terminalı quraşdırılıb. Bu yenilik sayəsində sərnişinlər artıq taksi sürücülərinin müəyyən etdiyi ixtiyari qiymətlərlə qarşılaşmayacaqlar. Bunun əvəzində şəffaf və sabit tariflər tətbiq olunacaq ki, bu da həm yerli sakinlər, həm də turistlər üçün səyahəti daha rahat və proqnozlaşdırıla bilən edəcək.***

"Unikal" Baku.ws-ə istinadla xəbər verir ki, yeni sistem aeroportdan şəhər mərkəzinə və məşhur otellərə gedən marşrutlar üçün standart qiymətlər müəyyənləşdirib.

Qiymətlər Azərbaycan manatı (AZN) və ABŞ dolları (USD) ilə göstərilir ki, bu da beynəlxalq səyahətçilərin işini asanlaşdırır. Terminalın istifadəyə verilməsi ilə taksi xidmətləri daha mütəşəkkil hala gətirilib, uzun növbələr azalıb və ödənişlərin elektron şəkildə edilməsi mümkün olub.Əsas marşrutlar və qiymətlər:

| Ünvan | Qiymət (AZN) | Qiymət (USD) |
|---|---|---|
| 20 Yanvar M/S | 29 ₼ | 17 $ |
| Əhmədli M/S | 25 ₼ | 14 $ |
| Baku Marriott Hotel Boulevard | 26 ₼ | 15 $ |
| Hilton Baku | 26 ₼ | 15 $ |
| JW Marriott Absheron Baku | 26 ₼ | 15 $ |
| Winter Park Hotel | 27 ₼ | 16 $ |
| Courtyard Baku | 27 ₼ | 16 $ |
| The Merchant Baku | 27 ₼ | 16 $ |
| Ibis Baku City Hotel | 25 ₼ | 15 $ |
| Holiday Inn Hotel | 25 ₼ | 15 $ |
| Altus | 24 ₼ | 14 $ |
| Fairmont Hotel Baku | 29 ₼ | 17 $ |
| Four Seasons Hotel Baku | 28 ₼ | 16 $ |
| Sheraton Baku Intourist Hotel | 28 ₼ | 16 $ |
| InterContinental Hotel | 27 ₼ | 16 $ |
| Sea Breeze Hotel/Resort | 30 ₼ | 18 $ |
| Excelsior Hotel | 24 ₼ | 14 $ |
| Melissa Park | 29 ₼ | 17 $ |
| Stonepay Royal Park | 30 ₼ | 18 $ |

# Adam öldürmə halları azalıb

***Ötən illərlə müqayisədə qəsdən adam öldürmə hallarında artım müşahidə edilməyib. Qeydə alınan qəsdən adamöldürmə hallarının əksəriyyəti isə məişət zəminində baş verib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun İstintaqa nəzarət idarəsinin rəisi Mahir Abbasov bildirib.

O, Baş Prokurorluğun rəsmi instaqram səhifəsindəki canlı yayım zamanı deyib ki, quldurluq, tamah və digər niyyətlərdən irəli gələn qəsdən adamöldürmə faktlarına isə daha az təsadüf olunub. "Xüsusilə yay aylarında ən çox rast gəlinən hallar şəxsi münasibətlərdəki ziddiyyətlər zəminində törədilmiş qəsdən adam öldürmə cinayətləridir", - deyə M.Abbasov əlavə edib.

# "JOY Travel" şirkətinin rəhbərlərindən biri həbs edildi



***"Bir neçə gün öncə Xətai rayon Prokurorluğunda "JOY Travel" şirkəti barəsində cinayət işi açılmışdı. Hazırda əlavə şəxslərdən də şikayətlər var".***

"Unikal" xəbər verir ki, bunu Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Mahir Abbasov sosial şəbəkədə canlı yayımda deyib.

"Biz dərhal müraciətlərə cavab vermişik. Şirkətin rəhbərlərindən biri barəsində həbs qətimkan tədbiri seçilib. İttihamın mahiyyətini təqsirsizlik prezumpsiyasına uyğun olaraq açıqlamırıq. Digər şəxslərin faktiki iştirakı ilə bağlı isə araşdırma aparılır və sonda hüquqi qiymətləndiriləcək", deyə bildirib.

# "Qanunvericilikdə litium batareyalarının utilizasiya ilə bağlı müddəa yoxdur" - Deputat

***"Qanunvericilikdə elektrikli avtomobillərdəki litium batareyalarının utilizasiyası ilə bağlı dəyişiklik edilməsinə ehtiyac var".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclasında deputat Rövşən Muradov deyib.

Onun sözlərinə görə, son dövrlərdə Azərbaycana xeyli sayda elektrikli avtomobillər gətirilir: "Azərbaycan dövləti ekoloji nöqteyi-nəzərdən belə avtomobillərin alınmasını təşviq edir. Lakin bu istiqamətdə mühüm məsələ elektrikli avtomobillərdəki litium batareyalarının utilizasiyasıdır. Belə batareyaların istimar müddəti 5-7 il arasındadır. Bununla bağlı suallar meydana gəlir. Lakin qanunvericilikdə bu cür batareyaların utilizasiya ilə bağlı heç bir müddəa yoxdur. İstərdim ki, bu sessiyada bu mövzunu da müzakirə edək. Qanunvericilikdə bununla bağlı dəyişiklik edilməsi zəruri olardı".

***Anar Kəlbiyev***

# 30 yaş cavanlaşdıran gündəlik iş rejimi

***Sağlam həyat tərzi vərdişlərini inkişaf etdirməklə bioloji yaşınızı dəyişmək mümkündür. Mütəxəssislər sağlam həyatın hər kəsin tətbiq edə biləcəyi sadə üsullarla mümkün olduğunu deyir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, illərdir həddindən artıq işləmək və yuxusuzluq səbəbindən çoxsaylı orqan çatışmazlığından əziyyət çəkən doktor Alka Patel həyat tərzini kökündən dəyişərək bioloji yaşını 20-yə endirib.

Patel sağlam həyatın hər kəsin tətbiq edə biləcəyi sadə üsullarla mümkün olduğunu deyir. Məlumata görə, İngiltərədə yaşayan həkim Alka Patel məşğul olduğu peşə həyatı və qeyri-sağlam vərdişləri səbəbindən 2011-ci ildə həyatı itirmək təhlükəsi ilə üz-üzə gəlib.

Həftələrlə yuxusuz qalma, nizamsız yemək vərdişləri və həddindən artıq stressdən sonra Patel 42 dərəcə Selsi hərarəti ilə xəstəxanaya yerləşdirilib və çoxlu orqan çatışmazlığı riski səbəbiylə təcili əməliyyat olunub.

Lakin həkimlər heç bir infeksiya aşkar edə bilməyiblər. Bir aylıq müalicədən sonra həyata qayıdan Patel həyatında köklü dəyişikliklər etmək qərarına gəlib. O, stressin sağlamlığa dağıdıcı təsirini anlayıb.

14 ildən sonra indi 53 yaşında olan Patel bioloji yaşını 20-yə endirməyə müvəffəq olub.

"Elm göstərir ki, biz yaşımızı müəyyən yollarla azalda bilərik. Mən bunun canlı sübutuyam" deyən Patel, inkişaf etdirdiyi üsulları xəstələri ilə bölüşür.

Bioloji yaşını cavanlaşdırmaq üçün Patel yuxu, qidalanma və idmana əsaslanan bir rutin yaradıb. Və bunu 14 il ərzində hər gün təkrar edir.

Belə ki, o, hər gün saat 21:30-da yuxuya gedir, səkkiz saat fasiləsiz yatır. Səhəri müəyyən məşqləri ilə açır. Sonra günəş işığında vaxt keçirir. Həkim ilk yeməyini səhər saat 10:00-da yeyir, qidalanma vaxtını səkkiz saatla məhdudlaşdırır, beləliklə hüceyrə təmirini dəstəkləyir. O, nahar üçün protein və liflə zəngin qidalara üstünlük verir. Yeməkdən sonra gəzir və gün ərzində qısa məşqlər ilə əzələ sağlamlığını dəstəkləyir.



Patel işindən də geri qalmır. O rutininə uyğun olaraq işə gedir və özünü çox yormamağa çalışır. Həyat keyfiyyətini yaxşı olduğunu vurğulayan həkim özünü 23 yaşındakı kimi hiss etdiyini açıqlayıb.

Patel vurğulayır ki, bu sadə təcrübələr bahalı üsullara ehtiyac olmadan sağlam həyat sürməyi mümkün edir. O bildirir ki, "Bioloji yaş eqo deyil, sağlamlığın göstəricisidir. Onu aşağı salmaqla biz daha uzun, daha enerjili və daha sağlam yaşaya bilərik".

***Gülayə Mecid***

# Bakıya əlavə yol-patrul naryadları cəlb olunub

***Baş Dövlət Yol Polisi İdarəsi Bakıya giriş-çıxış yollarında fasiləsiz hərəkətin təmin edilməsi məqsədilə davamlı tədbirlər həyata keçirir.***




Bu barədə "Unikal"a İdarədən məlumat verilib.

Bildirilib ki, Baş Dövlət Yol Polisi İdarəsi paytaxtda və paytaxtın giriş-çıxış yollarında nəqliyyatın hərəkət intensivliyini nəzərə alaraq, yollarda sıxlıqların qarşısının alınması və hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə xidməti nəzarəti gücləndirib.

Xüsusilə günün pik saatlarında əlavə yol-patrul naryadları xidmətə cəlb olunub, hərəkət axınının tənzimlənməsi, dayanma-durma qaydalarının pozulmasının qarşısının alınması istiqamətində davamlı tədbirlər həyata keçirilir.

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:18 PM Page 14



# 20 oktyabr Ümumdünya statistika günüdür

***Statistika - bu ad bütün dünyada tutduğu mövqe ilə öz adını tarixə həkk etdirib. Bunun nəticəsidir ki, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi müvafiq qətnaməsi ilə 2010-cu ildən başlayaraq hər 5 ildən bir 20 oktyabrda Dünya Statistika Günü kimi qeyd edilməsini tövsiyə etmişdir.***

Bu qətnaməni qəbul etməklə Baş Məclis etibarlı statistika məlumatlarının hazırlanmasında milli statistika təşkilatlarının fundamental əhəmiyyətini rəsmi təsdiq etmişdir. BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli, 69/282 saylı qətnaməsinə uyğun olaraq 2025-ci il 20 oktyabr tarixində “Hər kəs üçün keyfiyyətli statistika ilə



inkişafa təkan verək” şüarı altında Ümumdünya Statistika Günü qeyd olunacaqdır.

Azərbaycan statistikləri üçün 2025-ci il xüsusilə önəmli bir ildir. Bu il Azərbaycanda rəsmi statistikanın 105 yaşı tamam olur. Belə ki, 1920-ci il avqust ayının 19-da Azərbaycan İnqilab Komitəsi tərəfindən dövlət statistikası haqqında ilk əsasnamə təsdiq olunmuşdur. 1987-ci ildə Azərbaycan SSR Mərkəzi Statistika İdarəsi Azərbaycan SSR Dövlət Statistika Komitəsinə çevrilmiş və Azərbaycan SSR Nazirlər Kabinetinin 30 mart 1988-ci il tarixli qərarı ilə Azərbaycan SSR Dövlət Statistika Komitəsi haqqında əsasnamə təsdiq edilmişdir.

Uzun inkişaf yolu keçmiş statistika sisteminin inkişafı ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə daha geniş vüsət almağa başlamış, 1994-cü il Azərbaycan statistikasının tarixində xüsusi il olmuşdur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 18 fevral 1994-cü ildə “Statistika haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmış və bu tarixdən qanunun qüvvəyə minməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı imzalanmışdır. Qanunun qəbulu ilə statistika sahəsində yeni bir dövr başlamış, ölkədə həyata keçirilən islahatlar və statistikaya dair beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qərarlara əsasən müvafiq dəyişikliklər aparılmışdır. Həmdə qanunun qəbulu dövlət statistika orqanlarının nüfuzunun artmasında, hesabat intizamının yüksəlməsində və dövlət məlumatlandırma sisteminin təkmilləşdirilməsində əsas rol oynamışdır.

Ulu öndər Heydər Əliyev öz çıxışlarında Dövlət Statistika Komitəsinin işinə yüksək qiymət verərək “Statistika Komitəsi əsas dövlət orqanlarından biridir” və “Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır” deyərək qeyd etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdən dövlət statistikası inkişafını uğurla davam etdirərək daha da üst səviyyəyə çatdırmışdır. Bunun nəticəsidir ki, bu gün Azərbaycan statistikası çox keyfiyyətli və təqdirə layiq işlər yerinə yetirərək Azərbaycan statistikasının adını tarixə qızıl hərflərlə həkk etdirir.

Rəsmi statistikanın inkişafı ilə bağlı Dövlət Proqramları hazırlanmış və icra olunmuşdur. 2018-2025-ci illəri əhatə edən rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı ölkə Prezidentinin 2018-ci il 14 fevral tarixli, 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş və uğurla yerinə yetirilməkdədir.

“2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı”nın 5.1.2.9-cu bəndinə əsasən 2025-ci ilin 15 iyul - 15 avqust tarixlərində Azərbaycan Respublikasında kənd təsərrüfatının növbəti siyahıyaalınması uğurla keçirilmişdir.

Ölkə başçısı Cənab İlham Əliyev tərəfindən Azərbaycan statistika orqanlarına mütamadi olaraq diqqət və qayğı göstərilmiş, əmək şəraiti daha da yaxşılaşdırılmışdır. Dövlət Statistika Komitəsinin müasir tələblərə cavab verən və məlumat tutumu yüksək olan veb səhifəsi yaradılmış, bu səhifənin hazırlanmasında yeni texnoloji imkanlardan istifadə edilmiş, məlumat bazasına giriş, axtarış sisteminin tətbiqi geniş imkanlar yaratmışdır. Statistikanın bütün sahələrini əhatə edən hesabat blankları, hesabatların tətbiq olunmasına dair təlimatlar və hesabatların elektron formada təqdim edilməsi üçün proqram təminatı səhifədə yerləşdirilərək istifadəçilərin ixtiyarına verilmişdir. Dövlət xidmətlərinin göstərilməsində səmərəliyinin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanları genişləndirilmişdir. Bu görülən işlərin nəticəsi olaraq Göygöl Rayon Statistika İdarəsi də statistik vahidlərlə geniş izahat işləri aparmış hesabat intizamını gücləndirmiş, hesabatların vaxtında təqdim olunmasını təmin etmişdir. Müəssisə və təşkilatlar hesabatları bütünlüklə elektron sənəd formasında təqdim etmələrinə nail olmuşdur.

Dövlət Statistika Komitəsinin rəhbərliyinin gərgin əməyi nəticəsində Komitə bir çox istiqamətlərdə MDB ölkələri arasında öncül yerlərdən birini tutur. Azərbaycan statistikləri qarşıda duran vəzifələri dərk edərək inanırlar ki, dünya standartlarına uyğun, keyfiyyətli və obyektiv statistikanın yaradılmasını həyata keçirirlər. Qarşıda duran bütün vəzifələri layiqincə yerinə yetirəcəklər.

***Göygöl Rayon Statistika İdarəsi***

# Milli Musiqi Günündə Üzeyir Hacıbəylinin məzarı ziyarət edildi



***18 sentyabr - Milli Musiqi Günü münasibətilə Fəxri xiyabanda dahi bəstəkar Üzeyir Hacıbəylinin məzarı ziyarət edilib.***

“Unikal” xəbər verir ki, mərasimdə mədəniyyət naziri Adil Kərimli, nazirliyin məsul əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Adil Kərimli mərasim iştirakçılarını Milli Musiqi Günü münasibətilə təbrik edərək bildirib ki, 18 sentyabr mədəniyyətimizin ən əlamətdar günlərindən biridir: “Üzeyir Hacıbəylinin zəngin ənənələri dünyaya səs salan, böyük məzmun və formaya malik sənət əsərləri ilə yaşadılır və istedadlarımız tərəfindən dünyaya tanıdılır. Bu gün Azərbaycanın öz musiqisi ilə qeyd etdiyi Milli Musiqi Günü heç də təsadüfi deyil. Bu gün milli musiqi məktəbinin yaradıcısı, dahi bəstəkar Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Böyük bəstəkarımız Üzeyir Hacıbəylinin xatirəsini bu gün hər bir azərbaycanlı, istər ölkə daxilində, istərsə də dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız ehtiramla yad edir. Bu il Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi qeyd olunur. Ölkəmizdə bu əlamətdar tarix yüksək səviyyədə, təntənəli şəkildə keçirilir. Tədbirlər planı hazırlanıb. 140 illik yubiley çərçivəsində Azərbaycanın musiqi incilərinin ən gözəl nümunələri təkcə ölkəmizdə deyil, bütün dünyada geniş şəkildə səsləndirilir. Hətta İtaliya, Avstriya, Almaniya və Türkiyə kimi ölkələrdə də konsertlər təşkil olunur”.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə dahi bəstəkarın ölməz irsindən söz açaraq bildirib ki, nə qədər Azərbaycan xalqı var, onun irsi də daim yaşayacaq.

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar isə qeyd edib ki, Üzeyir Hacıbəylinin irsi hər zaman Azərbaycan musiqisinin yaddaşında qalacaq. Qeyd edək ki, Üzeyir Hacıbəylinin 140 illik yubileyi ilə əlaqədar olaraq bu gün axşam Heydər Əliyev Sarayında Üzeyir Hacıbəyli XVII Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçiriləcək. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında Ü. Hacıbəylinin “Leyli və Məcnun” operası nümayiş olunacaq.

Festivalın tarixində ilk dəfə olaraq musiqi bayramının tədbirləri paytaxtla yanaşı, ölkəmizin 10-dan çox şəhər və rayonunu da əhatə edəcək. Sentyabrın 18-də Sumqayıt, Mingəçevir, Sabirabad, Şamaxı, Şəki, Biləsuvar, Füzuli, Şəmkir, Gəncə, Lənkəran, Xaçmaz və Göygöldə Üzeyir Hacıbəylinin musiqi əsərləri əsasında konsertlər və müxtəlif tədbirlər təşkil ediləcək.

# TƏBİB: Ötən ay 8 milyona yaxın tibbi xidmət göstərilib

***TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində 2025-ci ilin avqust ayı ərzində ümumilikdə 7 917 064 tibbi xidmət göstərilib.***

Bu barədə “Unikal”a TƏBİB-dən məlumat verilib. Bildirilib ki, avqust ayında göstərilən xidmət sayında ötən ilin eyni dövrü ilə müqayisədə artım müşahidə olunub. Xidmətlərdən 960 871-i stasionar, 6 956 193-ü ambulator olub.

Məlumata əsasən ötən ay 1 956 902 müraciət qeydə alınıb, bunlardan 41 733-ü stasionar, 1 915 169-ü ambulator olub. Tibb müəssisələrində göstərilən xidmətlərin ümumi sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3 % artıb.

Tibb müəssisələri üzrə vətəndaşlara göstərilən laborator xidmətlərdə də artım qeydə alınıb. Ay ərzində 3 239 481 sayda laborator müayinələr aparılıb ki, onların da 506 752-si stasionar, 2 732 729-ü ambulator olub.

Beləliklə, tibb müəssisələrində göstərilən laborator xidmətlərin ümumi sayında 2024-cü illə müqayisədə 8 % artım qeydə alınıb. Avqust ayı ərzində cərrahi əməliyyat və prosedurların sayı isə 31 002 olub. Onlardan 28 690-u stasionar, 2 312-si ambulatordur.

# Gömrükdən gizlin keçirmək istədiyi mallar musadirə olundu

***Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları müxtəlif növ malların gömrük sərhədindən qanunsuz yolla keçirilməsinin qarşısını alıblar.***

Bu barədə “Unikal”a Dövlət Gömrük Komitəsindən (DGK) bildirilib. Məlumata görə, Pekin-Bakı aviareysi ilə gələn Azərbaycan Respublikası vətəndaşına məxsus əşyalara baxış keçirilən zaman gömrük orqanlarına bəyan edilməyən 20 ədəd müxtəlif markalı xəz dəri məmulatları, 400 ədəd breket dəsti, 143 ədəd stomatoloji sahədə istifadə olunan dəst və 46 ədəd süni taxma saç aşkar edilib.

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:19 PM Page 15



# Türkiyədə 51 İŞİD üzvü saxlanıldı



***Türkiyədə İŞİD terror qruplaşmasının üzvlərinə qarşı əməliyyat keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin daxili işlər naziri Ali Yerlikaya məlumat yayıb.

Onun sözlərinə görə, Türkiyənin müxtəlif şəhər və rayonlarında İŞİD terror təşkilatına üzv olan, terror təşkilatına bağlı sözdə yardım təşkilatlarına maliyyə yardımı edən, sosial media hesabları vasitəsilə terror təşkilatı təbliğatı aparan 51 şübhəli saxlanılıb.

# Putin onu baş prokuror kimi görmək istədi

***Rusiya prezidenti Vladimir Putin Rusiyanın baş prokuroru vəzifəsinə Aleksandr Qutsanın namizədliyini irəli sürüb.***

"Unikal" xəbər verir ki, bu barədə Federasiya Şurası Konstitusiya Komitəsinin sədri Andrey Klişas bildirib.

O əlavə edib ki, yuxarı palata komitələri sentyabrın 23-də günorta saatlarında birgə iclas zamanı bu namizədin ilkin müzakirəsini keçirəcək.

***Ağarza Elçinoğlu***

# Paşinyan Bakıdakı separatçılardan danışdı

***"Biz bu mövzu üzərində (Bakıdakı erməni separatçıların qaytarılması - red.) gündəlik praktiki olaraq işləyirik".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 18-də hökumətin brifinqində bildirib.

"Göz qabağında olacaq bir nəticə olana qədər, mövzunun hədsiz həssaslığına görə əlavə sizin hamınızın bildiklərindən başqa heç nə deyə bilmərəm", - Paşinyan əlavə edib.

***Ağarza Elçinoğlu***

# İsrail və Suriya təhlükəsizlik sazişi imzalayacaq

***İsrail və Suriya 2025-ci ilin sonuna kimi bir sıra hərbi sazişlər imzalayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat dərc edib. "İsraillə danışıqlarda irəliləyiş əldə edilir. İlin sonuna kimi bir sıra razılaşmalar əldə olunacaq, ilk növbədə hərbi və təhlükəsizlik sahəsində", - agentlik qeyd edib.

Bildirilir ki, hazırda müqavilənin predmeti barədə məlumat yoxdur. Xatırladaq ki, "Sky News Arabia" Bakıda Suriya və İsrail arasında təhlükəsizlik görüşünün keçiriləcəyini yazmışdı.

***Gülayə Mecid***

# Paşinyan Naxçıvana silah daşınması ehtimalına münasibət bildirdi

***"Tramp marşrutu" çərçivəsində hər şey qarşılıqlı olmalıdır.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 18-də hökumətin brifinqində bildirib.

O, "Azərbaycan Sünik vasitəsilə Naxçıvana silah və əsgər daşıyacaqmı?" sualına belə cavab verib: "Biz özümüzə sual verməliyik ki, biz öz qoşunlarımızın və silahlarımızın Naxçıvandan keçməsini istəyirik, ya yox. Biz silahların Naxçıvandan dəmir yolu ilə Meğriyə keçməsini istədiyimizə qərar verdikdə, bu məsələ ilə bağlı danışıqlara başlayacağıq. Əgər bunu istəmədiyimizə qərar versək, müvafiq formulanı rəhbər tutacağıq".

Baş nazirin sözlərinə görə, kommunikasiyaların açılması və "Tramp marşrutu" ilə bağlı istənilən məsələyə əvvəllər bəyan edilmiş beş prinsip kontekstində baxılmalıdır.

Paşinyan həmçinin qeyd edib ki, bütün razılaşmalar qarşılıqlı olacaq: "İstənilən bənd eyni dərəcədə həm Ermənistana, həm də Azərbaycana şamil olunacaq. Bundan başqa, tərəflər hələlik razılaşmaların bütün detallarını müzakirə etməyiblər. Sazişlər prinsiplərə aiddir".

***Ağarza Elçinoğlu***

# BƏƏ Prezidenti Azərbaycana səfərindən görüntülər paylaşdı

***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana səfərindən görüntülər paylaşıb.***

"Unikal" xəbər verir ki, BƏƏ Prezidentinin sosial şəbəkə hesabında paylaşında videoda onun azad edilmiş ərazilərdəki səfərinin görüntüləri əks olunub.



"Mən Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında inkişaf edən ikitərəfli münasibətləri nəzərdən keçirmək məqsədilə Qarabağda Zati-aliləri Prezident İlham Əliyev ilə görüşməkdən məmnun oldum. Biz bu yaxınlarda imzalanmış Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişinin verdiyi imkanlardan faydalanaraq, iqtisadi inkişafı sürətləndirmək, ortaq imkanlar yaratmaq, regional və qlobal sülh və sabitliyi dəstəkləməyə yönəlmiş əməkdaşlığın yeni istiqamətlərini araşdırdıq", - paylaşımda deyilir.

# Rusiya məhkəməsi azərbaycanlı iş adamını cinayətdə təqsirli bilib?

***Sverdlovsk vilayət məhkəməsi 2000-ci ildə biznesmen Aleksey Zubakini öldürməkdə təqsirləndirilən azərbaycanlı iş adamı Nəsimi Məmmədov barəsində çıxarılan bəraət hökmünü növbəti dəfə ləğv edib.***

"Unikal" Rusiya mətbuatına istinadən xəbər verir ki, bu barədə onun vəkili Olesya Bortnikova məlumat yayıb.

Məlumata görə, məhkəmə Məmmədovu "Atomrudmet"in sahibi Aleksey Zubakinin qətlində təqsirli bilib.

Belə ki, qətl 2000-ci il dekabrın 21-də Aleksey Zubakin evinin qarşısında baş verib. Bu zaman onun yanında biznes ortağı Dmitri Deyçi də olub. Naməlum şəxs iki tapança ilə iş adamını güllələyib.

Biznesmen 2 gün sonra xəstəxanada dünyasını dəyişib. Deyç cinayət işində şahid qismində dinlənilib. Məlumata görə, o təkcə Zubakinin ortağı deyilmiş, həm də onlar ailəvi dost olublar. Alekseyin ölümündən sonra Deyç biznesin yeganə sahibi olub. 2022-ci ilin martında təhlükəsizlik qüvvələri mütəşəkkil cinayətkar qruplaşmanın keçmiş lideri Mixail Kloku, Dmitri Deyçi və Nəsimi Məmmədovu saxlayıb.

İstintaqa görə, Deyç ortağının Mixail Klok tərəfindən öldürüldüyünü etiraf edib. Mixail Klok isə qatilin onun keçmiş sürücüsü Nəsimi Məmmədov olduğunu bildirib.

Nəsimi Məmmədov cinayətdə iştirakını qəti şəkildə inkar edib. Məhkəmə Məmmədovun hər iki əli ilə atəş açmaq üçün lazımi bacarıqlara malik olmadığını iddia edib. Üstəlik, cinayət baş verən gün o, xəstəxanada olub. Bu, tibbi qeydlərlə təsdiqlənib.

2023-cü ildə Deyç xəstəlikdən ölüb. Məhkəmə isə Məmmədovu təqsirsiz hesab edib. Prokurorluq hökmdən apellyasiya şikayəti verib, lakin məhkəmənin ikinci raundunda - 29 mart 2024-cü ildə Məmmədov



yenidən təqsirli bilinməyib. İyunun 11-də yeni məhkəmə prosesi başa çatıb.

Buna baxmayaraq, vilayət prokurorluğu hökmdən yenidən apellyasiya şikayəti verib. Sentyabrın 17-də Sverdlovsk vilayət məhkəməsi bəraət hökmünü qüvvədə saxlayıb. Klokun işi ayrıca icraata ayrılıb.

Hakimlər Məmmədovu təqsirsiz hesab etsələr də, prokuror hökmü ləğv etməyə çalışıb və iş yenidən məhkəmə baxışına qaytarılıb.

***Gülayə Mecid***

# Tramp Netanyahudan narazıdır - KİV

***ABŞ prezidenti Donald Tramp İsrailin baş naziri Benyamin Netanyahunun hərbi planlarına görə, İsrailə təzyiq etməkdən qaçmağa çalışır***



"Unikal" xəbər verir ki, bu barədə "The Wall Street Journal" mənbələrə istinadən məlumat yayıb.

Nəşrin yazdığına görə, Tramp son həftələrdə köməkçilərinə İsrail baş nazirindən şikayət edərək, Netanyahunun HƏMAS ilə danışıqlara cəhd etməkdənsə, ordudan istifadə etməyə meylli olduğunu iddia edib.

Nəşr qeyd edir ki, Tramp Netanyahuya şəxsi simpatiyası və İsrailin baş nazirinin Konqresdəki yəhudi lobbisi və mühafizəkar media üzərində güclü təsiri səbəbindən heç bir tədbir görmür. Üstəlik, Ağ Evin lideri İbrahim razılaşmalarını və İsrail ilə Səudiyyə Ərəbistanı arasında mümkün normallaşma sazişini təhlükə altına atmaq istəmir. Xatırladaq ki, İbrahim Sazişləri 2020-2021-ci illərdə imzalanmış İsrail və ərəb dövlətləri arasında münasibətlərin normallaşdırılmasına dair sənəddir.

***Gülayə Mecid***

# Ermənistan Arpaçayın üzərində bənd tikəcək

***Tavuş rayonunun Açarkut (Qərbi Azərbaycanda əvvəllər Qaraqoyunlu dərəsi adlanan ərazidəki kəndlərdən biri - red.) kəndindəki Qaraxan çayının üzərində bənd tikiləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı məlumat yayıb.

Bununla bağlı Ermənistan hökumət bu gün, sentyabrın 18-də keçirilən iclasında qərar qəbul edib.

Əsasnamədə bildirilir ki, hələ 2024-cü il avqustun 2-3-də baş nazir Nikol Paşinyanın Tavuş vilayətinə səfəri zamanı Tavuş qubernatoruna İcevan icmasının başçısı ilə birgə Qaraxan çayında bəndin tikintisi üçün 300-400 kvadratmetr sahənin ayrılması imkanının müzakirə etmək təklif edilib.

Qeyd edək ki, Qaraxan çayı Qərbi Arpaçayın əhəmiyyətli qollarından biridir.

***Ağarza Elçinoğlu***

35_27 IYUl-QARA.qxd 9/18/2025 9:19 PM Page 16



# "Neftçi", "Şamaxı" və "Sumqayıt" cərimələndi



*AFFA İntizam Komitəsinin iclası keçirilib.*

“Unikal” PFL-in saytına istinadən xəbər verir ki, iclasda Misli Premyer Liqasının 4-cü turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul edilib.

“İmişli” - “Sumqayıt” oyununun 67-ci dəqiqəsində “İmişli”nin heyətində adı protokolda olmayan İbrahim Əliyev oyuna daxil olduğuna görə bölgə təmsilçisinə 0:3 hesablı texniki məğlubiyyət verilib. Klub 5000 manat cərimə edilib.

Eyni matçda “İmişli”nin heyətində 5 nəfər sarı vərəqə aldığı üçün klub 700 manat cərimələnib.

Bu görüşün 90+4-cü dəqiqəsində “İmişli”nin heyətində 94 nömrəli futbolçu Rafael Vieqaş təcavüzkar davranışa (rəqibi ayaqla vurduğuna) görə birbaşa qırmızı vərəqə aldığı üçün 3 oyun cəzalandırılıb, klubu 3000 manat cərimə edilib.

Həmin oyunda “Sumqayıt” azarkeşləri tərəfindən kütləvi şəkildə hakimlərin ünvanına təhqiramiz ifadələr səsləndirildiyinə görə ”gənclik şəhəri” təmsilçisi 5000 manat cərimələnib.

“Şamaxı” - “Karvan” oyununda “Şamaxı”nın heyətində 4 nəfər sarı vərəqə aldığı üçün klub komandası 700 manat cərimələnib.

“Neftçi” - “Sabah” oyununun 45+2-ci dəqiqəsində “Neftçi” azarkeşləri tərəfindən meydançaya kənar əşyaların atıldığına və bu hal cari mövsümdə ikinci dəfə yaşandığına görə paytaxt təmsilçisi 3000 manat cərimə edillib.

“Neftçi” - “Sabah” oyununda “Neftçi” azarkeşləri tərəfindən kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə klub 5000 manat cərimələnib.

# Şəhidlərin xatirəsinə həsr olunan voleybol turnirinə yekun vurulub

*Cənub qapımız Astarada 9 gün davam edən “Konstitusiya və Suverenlik ili” çərçivəsində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş voleybol idman növü üzrə rayon turnirinə yekun vurulub.*




Astara Olimpiya İdman Kompleksində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin, Astara Olimpiya İdman Kompleksinin birgə təşkilatçılığı ilə baş tutan turnirdə 6 komanda yarışların Dairəvi Sistemi üzrə mübarizə aparıb.

Açılış və təltif etmə mərasimlərində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Astara rayonu üzrə gənclər və idman sektorunun əməkdaşları, Astara Olimpiya İdman Kompleksinin direktoru Aslan Ağayev iştirak ediblər.

Yekun nəticəyə əsasən Səncərədi kəndinin “Alaşa” komandası turnirin birincisi olub. II yeri “Stansiya” (Astara) komandası, III yeri ”Astara Qaz” (Astara Qaz XC) komandası qazanıb. I yeri qazanan komanda və komanda üzvləri Astara Olimpiya İdman Kompleksinin kuboku, medalları və diplomları ilə, II və III yerləri qazanan komandalar və komanda üzvləri diplom və medalları ilə təltif olunublar.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "İmişli" klubuna texniki məğlubiyyət verildi



*AFFA İntizam Komitəsi ”İmişli” klubuna texniki məğlubiyuyət (0:3) verib.*

“Unikal” xəbər verir ki, bu barədə AFFA-nın saytı məlumat yayıb. Buna səbəb Misli Premyer Liqasında 4-cü turunda ”İmişli” - ”Sumqayıt” oyununun 67-ci dəqiqəsində ”İmişli” komandasının heyətində adı protokolda olmayan İbrahim Əliyevin oyuna daxil olması olub. Klub 0:3 hesablı texniki məğlubiyyətlə yanaşı, 5 min manat cərimələnib.

Texniki məğlubiyyətə görə 3 xalı silinən ”İmişli” turnir cədvəlində 4-cü pillədən 8-ci yerə enib. ”Sumqayıt” isə əlavə olunan 3 xala görə 4-cü pillədən liderliyə yüksəlib.

Bu görüşün 90+4-cü dəqiqəsində ”İmişli”nin heyətində 94 nömrəli futbolçu Rafael Vieqaş təcavüzkar davranışa (rəqibi ayaqla vurduğuna) görə birbaşa qırmızı vərəqə aldığı üçün 3 oyun cəzalandırılıb, klubu 3 min manat cərimə edilib. Xatırladaq ki, sözügedən oyunda ”İmişli” 1:0 hesabı ilə qalib gəlmişdi.

# Nihat Kahveci: "İnsan "Qarabağ"a həsəd aparır"



*Türkiyəli tanınmış futbol mütəxəssisi Nihat Kahveci “Qarabağ”ın Çempionlar Liqasının Liqa mərhələsinin 1-ci turunda ”Benfika” üzərindəki zəfərindən (3:2) danışıb.*

QOL.az xəbər verir ki, o, “Kontraspor” verilişində ”Fənərbaxça”nın pley-off mərhələsində Joze Mourinyonun rəhbərliyi altında ”Benfika”ya uduzmasına diqqət çəkib və Ağdam təmsilçisi haqda xoş sözlər səsləndirib:

”Mourinyo baba deyirdi ki, ”Benfika” möhtəşəm komandadır, cütün favoritidir, bizim məğlubiyyətimiz normaldır. Azərbaycanlı qardaşlarıma, futbolçulara, klub prezidentindən idarəçisinə qədər, bütün azarkeşlərinə salam deyirəm, təbrik edirəm. 2:0-dan geridönüş etdilər, 3:2 hesabı ilə qalib gəldilər. İzlədim. Vurduğları qollara, oyun epizodlarına baxdım. İnsan həsəd aparır. Yeri gəlmişkən, Mourinyo indi özü ”Benfika”ya baş məşqçilik edəcək”.

# III MDB Oyunlarında Azərbaycanı 6 stolüstü tennisçi təmsil edəcək



*III MDB Oyunlarında Azərbaycanı 6 stolüstü tennisçi təmsil edəcək.*

Adil Əhmədzadə, Onur Quluzadə, Rüstəm Hacılı, Mərziyyə Nurmətova, Aylin Əsgərova və Yağmur Məmmədli məşqçilər Elnur Hidayətzadə və Ramil Cəfərovun rəhbərliyi ilə bacarığını göstərəcək.

İdmançılar komanda, şəxsi, qoşa və qarışıq-qoşa növlərdə mübarizə aparacaqlar.

Qeyd edək ki, Qəbələ Olimpiya İdman Kompleksində təşkil olunacaq stolüstü tennis yarışları sentyabrın 26-dan 29-dək keçiriləcək.

# Salahdan Çempionlar Liqasında unikal göstərici



*”Liverpul”un hücumçusu Məhəmməd Salah Çempionlar Liqasında yeni rekorda imza atıb.*

QOL.az xəbər verir ki, misirli hücumçu İngiltərə klublarında ÇL matçının ilk 6 dəqiqəsində qol vuran və qol ötürməsi edən ilk futbolçu olub. Bu barədə ”Opta” məlumat yayıb.

Salah ötən gecə Çempionlar Liqasının Liqa mərhələsinin ilk turunda ”Atletiko”nu məğlub etdikləri (3:2) matçın 4-cü dəqiqəsində Endryu Robertsona qol ötürməsi edib, 6-cı dəqiqədə isə özü rəqib qapısına yol tapıb.

# Noyerdən "Bavariya" tarixinin rekordu



*”Bavariya”nın kapitanı Manuel Noyer klub tarixinə yeni göstərici ilə düşüb.*

Bu barədə ”Opta” məlumat yayıb. Noyer Çempionlar Liqasının Liqa mərhələsinin 1-citurunda ”Çelsi” ilə görüşdə iştirak etməklə Münhen təmsilçisinin turnirdə meydana çıxan ən yaşlı oyunçusu olub.

39 yaş 174 günlüyündə olan qolkiper Lotar Matthausun rekordunu qırıb. Belə ki, Matthaus 8 mart 2000-ci il tarixində 38 yaş 353 günlüyündə olarkən ”Real”a qarşı oynamışdı.

Qeyd edək ki, Noyer 2011-ci ildən ”Bavariya”nın formasını geyinir.